Bu bir xalq qəzetidi
ƏDALƏT

## "YAŞAT" Fondu bu günə kimi 4882 şəxsi öhdəliyə götürüb




**Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu) tərəfindən ağır yaralanan qazilərimizin səhhətinin bərpası ilə bağlı tədbirlər davam etdirilir.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən Adalet.az-a verilən məlumata görə, bu günə kimi 4882 şəxs öhdəliyə götürülüb. Eyni zamanda, bugünədək 2 775 şəhid ailəsi ziyarət olunub. Bundan başqa, 2133 yaralının müraciəti qeydə alınıb. Ümumilikdə, ziyarət olunan şəhid ailəsi üzvləri və yaralıların sayı 13 692-dir.

## ATƏT sədri: "Bölgədə vəziyyət dəyişib"



**Bölgədəki vəziyyət dəyişib. Bunu Azərbaycanda səfərdə olan ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin xarici işlər naziri Ann Linde azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra mətbuat konfransında deyib.**

**O, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Qarabağdakı atəşkəslə bağlı bəyanatlarını alqışlayıb.**

**Linde ATƏT-in fəaliyyətdə olan sədri kimi İsveçin əsas prioritetinin Avropadakı təhlükəsizlik sistemini qorumaq və hərtərəfli təhlükəsizlik konsepsiyasını dəstəkləmək olduğunu qeyd edib.**

**XİN rəhbəri, həmçinin ATƏT-in Minsk qrupunun fəaliyyətinə dəstəyini ifadə edib.**

## "Bəyanatlar bölgədə sülhün yaradılmasını təmin edir"



*Bölgədə yaranmış yeni reallıq, yeni tranzit imkanları Azərbaycan və ATƏT arasında dialoqun xeyli zənginləşməsinə səbəb ola bilər.*

*Adalet.az xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin xarici işlər naziri Ann Linde ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.*

*Nazir bildirib ki, Ermənistanın növbəti təxribatına cavab olaraq 44 günlük Vətən müharibəsi nəticəsində 30 il işğal altında olan Azərbaycan torpaqları azad edilib.*

*"Azərbaycanın BMT qətnamələri, ATƏT qərarlarında qəbul olunan ərazi bütövlüyü bərpa edilib. Bölgədəki vəziyyət yeni təhlükəsizlik formatının yaradılmasına, ölkələr arasında əməkdaşlığın genişlənməsinə münbit imkan yaradır. Azərbaycan Helsinki Yekun Aktına, ərazi bütövlüyü, sərhədlərin pozulmaması əsasında ölkələr arasında münasibətlərin normallaşmasına tərəfdardır. 10 noyabr 2020 və 11 yanvar 2021-ci il tarixli bəyanatlar bölgədə sülhün yaradılmasını təmin edir. ATƏT və Azərbaycan arasında həyata keçirilən layihələr bu istiqamətdə vəziyyətin stabilləşməsinə mühüm töhfə verə bilər. Postmüharibə dövründə minaların təmizlənməsi, icmalar arasında etimad mühitinin yaradılması və digər istiqamətlərdə mühüm imkanlar mövcuddur".*

## Nazir: "Qeyri-neft sənayesində mal və xidmətlərin həcmi 13% artıb"



**2021-ci ilin yanvar ayı üzrə qeyri-neft sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi (ümumi buraxılış) 1.028 milyon manat təşkil edib.**

Adalet.az-ın məlumatına görə, bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazir qeyd edib ki, bu rəqəmlər ötən ilin müvafiq dövrünə nisbətən 12,8% artıb: "Qeyri-neft emal sənayesi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,0% artıb".

## Naxçıvanda komanda - qərargah təlimi keçirildi

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən komanda-qərargah təlimi keçirilib.*

*Bu barədə Adalet.az -a Müdafiə Nazirliyindən məlumat verilib. Komanda-qərargah təlimində Naxçıvan Qarnizonu Qoşunları müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilib, birləşmə və hissələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb. Müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı şəxsi heyətin tapşırıqları operativ yerinə yetirməsi məşq etdirilib. Təlimin sonuncu mərhələsində birləşmə və hissələrin fəaliyyəti, qərarların və hesablamaların reallığı Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzindəki kompüterlər vasitəsilə qiymətləndirilib.*



*Komandir heyətinin yaranmış taktiki şəraitə uyğun qısa müddətdə qərar qəbul edib yuxarı qərargaha məruzə etməsi, tabelikdə olanlara çatdırması, döyüşün təşkili üzrə bacarıq və vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə kompüterlər üzərində məşqlər keçirilib.*

Bu bir xalq qəzetidi
ƏDALƏT

www.adalet.az

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 30 (5862) 16 mart 2021-ci il | Qiymәti 30 qəpik

# Ordumuz 10 min nəfərlə təlimlərə başladı



***Qoşunların 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan ordusu əməliyyat-taktiki təlimlərinə başlayıb.***

***Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, müdafiə nazirinin rəhbərliyi ilə keçirilən təlimə 10 000 nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.***

***Dağlıq-meşə və çətin relyefli ərazilərdə keçirilən təlimlərdə Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla əsas diqqət qoşunların idarəolunması, döyüşə hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, o cümlədən ümumqoşun birlikləri, Raket və Artilleriya Qoşunları, aviasiya, Xüsusi Təyinatlı Qüvvələr arasında döyüş uzlaşması və qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə yönəldilib. Martın 18-dək davam edəcək təlimlərdə qoşunlar terrorçu dəstələr (qruplar), həmçinin qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və anti-terror əməliyyatları üzrə tapşırıqları icra edəcək.***

## Ülvi Mehdiyev Türkiyədə müalicə olunan qazilərimizi ziyarət etdi

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Türkiyə Respublikasına işgüzar səfəri çərçivəsində "YAŞAT" Fondu tərəfindən Türkiyəyə müalicə üçün göndərilən, ağır yaralanan qazilərimizi ziyarət edib. Adalet.az xəbər verir ki, ölkəmizdəki həkimlərin rəyi nəzərə alınaraq 24 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə gerçəkləşib. Onlardan 4-ünün müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib.*



*Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qazilərimizlə söhbət zamanı bildirib ki, hər birimiz Qələbəni bizə yaşatdıqları üçün onlara minnətdarıq və "YAŞAT" Fondu onların müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.*

## Daha iki məktəb koronavirusa görə bağlandı



*Azərbaycanda daha iki məktəb koronavirus səbəbindən distant təhsilə keçib.*

*Adalet.az-ın məlumatına görə, Bakı şəhəri Xətai rayonu 27 nömrəli tam orta məktəb yoluxmaya görə bağlanıb.*

*Distant təhsilə keçən digər məktəb isə Qax rayonu 2 nömrəli ümumtəhsil müəssisəsidir. Məktəbdən məlumatı təsdiqləyiblər. Bildirilib ki, məktəb bu gündən etibarən fəaliyyətini dayandırıb.*

## Ərdoğan: "Qardaşlarımızın imdadına yetişdik"



*Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğan AKP-nin "Gənclik Kolları - 6" Konqresində Azərbaycana qardaş ölkənin dəstəyini xatırladıb. Bu barədə "Haber Global" məlumat yayır. "Kiprdən İraqa, Suriyaya, Qarabağdan Liviyaya qədər qardaşlarımızın imdadına yetişdik", - deyə Türkiyə lideri bildirib.*

*Ərdoğan gənclərə xitabən deyib ki, siz pozuculuq siyasəti yürüdənlərə qarşı qardaşlığımızın və birliyimizin təminatçısısınız.*

## Xocavənddə kənd-təsərrüfatı ilə məşğul olan şəxs minaya düşüb




**Martın 13-də saat 16 radələrində 1980-ci il təvəllüdlü İman Baxşaliyevin Xocavənd rayonunun işğaldan azad edilmiş ərazisində minaya düşməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.**

Xocavənd rayon prokurorluğundan Adalet.az-a verilən məlumata görə, aparılmış araşdırmalarla İman Baxşaliyevin kənd-təsərrüfat fəaliyyəti ilə məşğul olarkən qeyd edilən ərazidə minaya düşməsi nəticəsində "sağ ayağın topuqdan aşağı ətrafının amputasiyası" və digər çoxsaylı xəsarətlər alması müəyyən edilmişdir.

**Faktla bağlı Xocavənd rayon prokurorluğu tərəfindən araşdırma aparılır.**

## Britaniyada Bəşər Əsədin həyat yoldaşına qarşı istintaq başlanıb



***Böyük Britaniya polisi Suriya lideri Bəşər Əsədin həyat yoldaşı Əsma Əsədə qarşı ilkin istintaqa başlayıb.***

***"Sunday Times" qəzetinin məlumatına görə, Suriyanın birinci xanımı vətəndaş müharibəsi zamanı ölkədə baş vermiş bir sıra terror aktlarında iştirakda şübhəli bilinir.***

***Qeyd olunur ki, istintaq səbəbindən Əsma Əsəd məhkəməyə verilə və Britaniya vətəndaşlığından məhrum edilə bilər. Həmçinin ona qarşı İnterpolun qırmızı bülleteni tətbiq edilə bilər. Bu halda prezident xanımı Suriya ərazisini tərk edə bilməyəcək. Əks halda isə saxlanılaraq təşkilata təhvil veriləcək.***

***Xatırladaq ki,45 yaşlı Əsma Əsəd Britaniyada doğulub və London Kral Kollecində təhsil alıb. 2000-ci ildə ailə həyatı quranadək o, bankda çalışıb. Daha sonra isə Suriyaya köçüb.***

## ABŞ-da silahlı atışma: 2 ölü, 15 yaralı

**ABŞ-ın Çikaqo şəhərinin Park Manor məhəlləsində baş verən silahlı atışma nəticəsində 2 nəfər ölüb, 15-i isə yaralanıb. Bu barədə Çikaqo polis departamentinin məlumatında deyilir. Bildirilib ki, bir qrup arasında yaşanan mübahisə sonradan qanlı atışma ilə nəticələnib.**

**Yaralılar xəstəxanaya çatdırılıb. Faktla bağlı istintaq başladılıb.**

**Mehman CAVADOĞLU**

# SÜLH DƏHLİZİ



**Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin Xarici İşlər naziri Anna Lindeni qəbul edərkən deyib: "Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir". Daha sonra danışıqların müxtəlif səviyyələrdə bir neçə mərhələsinin keçirildiyinə toxunan dövlət başçısı bildirib ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər: "Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu, bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik".**

**Bax: səh.2**

## Bakıda keçiddə gecələyən qadınla bağlı açıqlama



*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi Dənizkənarı Milli Parkda- Qız Qalası yaxınlığında gecələyən qadınla bağlı açıqlama verib.*

*Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Murad Həşimov deyib ki, sosial şəbəkələrdə Dənizkənarı Milli Park, Qız Qalası yaxınlığında bir qadının küçədə, keçiddə gecələməli olduğu, çətin həyat şəraiti ilə üzləşdiyi qeyd olunurdu:*

*"Məlumatı əldə etdiyimiz andan etibarən Sosial Xidmətlər Agentliyinin nümayəndələri qadının qaldığı əraziyə yollandılar. Təəssüf ki, ilkin cəhddə onu paylaşımlarda qeyd edilən yerdə tapmaq mümkün olmadı. Ardından Daxili İşlər Nazirliyi əməkdaşlarının səyi nəticəsində qadın tapıldı. Sosial Xidmətlər Agentliyi əməkdaşlarının da iştirakı ilə aidiyyatı səhiyyə qurumuna müraciət edilməklə lazımi müalicə müəssisəsinə göndərildi. Müalicədən sonra qadının vəziyyəti dəyərləndirilərək özünün razılığı olarsa Agentliyin aidiyyatı müəssisəsinə yerləşməsi təmin olunacaq.*

*Proses barədə narahat olan və xəbər verən hər kəsə təşəkkür edirik! Məsələyə operativ müdaxilə edən DİN əməkdaşlarına minnətdarlığımızı bildiririk!"*

## GÜNÜN LƏTİFƏSİ

Kişi iri supermarketdə alıcı qadınlardan birinə yaxınlaşır:

**- Bağışlayın,mən buralarda həyat yoldaşımı itirmişəm. Sizin köməyiniz lazımdı, mənə beş dəqiqə vaxt ayıra bilməzsiniz?**

- Necə?!

**- Bilirsiniz ,gəlin bir az söhbət eləyək ,sınamışam ,mən nə vaxt qəşəng qadınla söhbət eləmişəm ,mənim yoldaşım tez tapılıb. Qəfil hardansa üzə çıxıb ,başıalovlu kimi bizə yaxınlaşıb...**

# İlham Əliyev ATƏT sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Adalet.az xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyevlə ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin təkbətək görüşü oldu.

Sonra görüş geniş tərkibdə davam etdirildi.

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Xoş gəlmisiniz, xanım nazir. Sizi görməyə çox şadam. Bizim təkbətək danışmaq imkanımız oldu, indi isə nümayəndə heyətlərinin iştirakı ilə görüşürük. Sizin səfərinizə böyük əhəmiyyət veririk. ATƏT Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə birbaşa cəlb olunmuş təşkilatdır. Beləliklə, indi münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Bu gün sizinlə gələcək işlərin necə qurulması ilə bağlı fikirlərimizi müzakirə etdik. Düşünürəm ki, müharibədən sonra ötən 4 ay artıq hər iki tərəfin səhifəni bağlamaq və diqqəti gələcəyə yönəltmək iradəsini nümayiş etdirir. Bu, çox mühümdür.

Bizə gəlincə, biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki, işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir. Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu, bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik. Bilirəm ki, bu günlərdə çox məşğulsunuz, çox ölkəyə səfər edirsiniz. Mən sizi Azərbaycanda görməyə çox şadam. Ümidvaram ki, ölkəmizə səfəriniz çox məhsuldar olacaq. Bir daha xoş gəlmisiniz.

**ATƏT-in fəaliyyətdə olan sədri Ann Linden dedi:**

- Çox sağ olun. Məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bakıya belə uzun müddətdən sonra qayıtmaq sevindirici haldır. Təəssüf edirəm ki, payızda gələ bilməmişəm. Çünki hökumətimiz həmin vaxt uçuşların həyata keçirilməsinin təhlükəli olduğunu hesab etmişdir və bu səbəbdən mən gələ bilməmişdim. Lakin indi mən buradayam. Bildiyiniz kimi, ATƏT-in sədri olaraq bizim əsas prioritetimiz Avropada təhlükəsizlik sistemini müdafiə etməkdir və təhlükəsizliyi demokratiyaya, insan hüquqlarına və qanunun aliliyinə bağlayan hərtərəfli təhlükəsizlik konsepsiyasına dəstək olmaqdır.

Əlbəttə ki, biz ATƏT ərazisində münaqişənin həllinə töhfə vermək üçün nə edə biləcəklərimizi nəzərdən keçirəcəyik.

Odur ki, bu kontekstdə, əlbəttə, beynəlxalq hüquq, beynəlxalq insan hüquqları, humanitar qanun, qadınlar, sülh və təhlükəsizlik bizim üçün prioritet məsələlərdir. Hesab edirəm ki, bu məsələlər üzərində birlikdə çalışmaq mümkündür.

## *"Azərbaycan bütün hərbi əsirləri Ermənistana qaytarıb"*

**Üçtərəfli razılaşmaya uyğun olaraq Azərbaycan bütün hərbi əsirləri Ermənistan tərəfinə qaytarıb.**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin xarici işlər naziri Ann Lindeilə görüşdən sonra keçirilən mətbuat konfransında bildirib.

XİN başçısı deyib ki, bütün hərbi əsirlər Ermənistana qaytarılıb. Nazir əlavə edib ki, Azərbaycanın Ermənistana təhvil verdiyi hərbi əsirlərin sayı Ermənistanın Azərbaycana qaytardığı hərbi əsirlərin sayından dəfələrlə çox olub.

Onun sözlərinə görə, ATƏT sədrinin qeyd etdiyi şəxslər üçtərəfli bəyanat imzalanandan sonra, daha dəqiq desək, 26 noyabrda Azərbaycanın işğaldan azad edilmiş ərazisinə Ermənistanın Şirak vilayətindən gələnlərdir:

"Həmin şəxslər Azərbaycan ərazisində cinayətlər törədiblər, mülki insanları və hərbçiləri öldürüblər. Onlar barəsində Azərbaycanda istintaq əməliyyatları davam etdirilir. Bu kimi hallar qəbuelməzdir, üçtərəfli bəyanatın birbaşa pozulması deməkdir. Belə halların baş verməməsi üçün üçtərəfli bəyanata riayət olunması olduqca vacibdir".

C. Bayramov vurğulayıb ki, hətta indi də Ermənistan gecə vaxtı tikinti üçün nəzərdə tutulmuş maşınlarla hərbçilərini mülki geyimdə Azərbaycana göndərməyə cəhd edir.

**"Bu faktlar BMT Baş Assambleyasına da çatdırılıb. Beynəlxalq təşkilatlar bu məsələdə Ermənistana təzyiq etməli, hər bir tərəf üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir".**

# *Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib*

**Martın 15-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib.**

Milli Məclisdən Adalet.az-a verilən məlumata görə, iclasda komitə sədri Bəxtiyar Əliyev "Vətənpərvərlik tərbiyəsi ilə bağlı qanun layihəsinin hazırlanması" ilə əlaqədar məlumat verərək bildirib ki, Prezident İlham Əliyevin Altıncı çağırış Milli Məclisin ilk iclasında proqram xarakterli nitqində verdiyi tövsiyələr parlamentin qarşısında böyük vəzifələr qoyub və onlardan biri də gənclərin milli ruhda, vətənpərvərlik ruhunda yetişdirilməsi ilə bağlı idi.



Komitə sədri diqqətə çatdırıb ki, qarşıya qoyulan vəzifələrə uyğun olaraq ötən dövr ərzində Milli Məclisdə intensiv iş aparılıb. Qeyd olunub ki, xüsusən Vətən müharibəsi zamanı vətənpərvər gənclərimizin döyüş şücaəti sayəsində əldə olunan Şanlı Zəfər fonunda komitənin müzakirəsinə çıxarılan "Vətənpərvərlik tərbiyəsi ilə bağlı qanun layihəsinin hazırlanması" məsələsi xüsusi aktuallıq kəsb edir.

İclasda həmçinin B.Əliyev "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatı barədə" danışıb.

Komitə sədri Nazirlər Kabinetinin 2020-ci ildəki fəaliyyətini müsbət qiymətləndirib. Bildirib ki, ötən il dünya ölkələrinin iqtisadiyyatlarına böyük ziyan vuran pandemiyanın mənfi təsirlərinə Azərbaycan nəinki uğurla müqavimət göstərib, eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkə iqtisadiyyatında 2020-ci ildə nailiyyətlər əldə olunub. O, Azərbaycanın "Doing Business 2020" hesabatında mövqeyinin 6 pillə yüksəlməsini və ölkəmizin dünyanın "Ən islahatçı 10 ölkəsi" sırasında qərar tutmasını xüsusi vurğulayaraq Vətən Müharibəsində qələbədən sonra Azərbaycanın biznes və sərmayə qoyuluşları üçün daha da cəlbedici ölkəyə çevrildiyini deyib.

**Çıxış edən komitə üzvləri ölkəmizin 2020-ci ildəki nailiyyətlərini böhranı uğura necə çevirməyin nümunəsi kimi dəyərləndiriblər və hökumətin hesabatı ilə bağlı müsbət fikir bildiriblər.**

**Nicat Novruzoğlu**

# Daha bir layihə plenar iclasa tövsiyə olundu



*Martın 15-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikası Hesablama Palatasının auditorlarının təyin edilməsi haqqında" məsələyə baxılıb.*

*Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az -a verilən məlumata görə, iclasda komitənin sədri Tahir Mirkişili bildirib ki, Milli Məclisin Sədri xanım Sahibə Qafarovanın təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 44-cü maddəsinin dördüncü hissəsinə, "Hesablama Palatası haqqında" qanunun 11.3-cü maddəsinə və "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" qanunun 12-ci maddəsinin ikinci hissəsinə əsasən, Nəsir Sadıqovun Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini vəzifəsinə, Cavid Bayramovun, Hilal Hüseynovun və Vəfa Mütəllimovanın isə Hesablama Palatasının auditorları vəzifələrinə namizədlikləri irəli sürülüb.*

*Qeyd olunub ki, hazırda bu qurumun auditoru vəzifəsinə olan vakant yerlərə təqdim edilmiş namizədlər "Hesablama Palatası haqqında" qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş palatanın üzvlərinə dair tələblərə cavab verirlər, peşəkarlıq səviyyələri yüksəkdir. Tahir Mirkişili vurğulayıb ki, ali audit orqanı olan Hesablama Palatasının dövlət büdcəsinin icrası ilə bağlı həyata keçirdiyi fəaliyyət Milli Məclis deputatlarına təqdim olunan təhlil materiallarının əhatəli olmasında və yüksək keyfiyyətdə hazırlanmasında özünü aydın göstərir. Bu prosesin ildən-ilə təkmilləşməsində adı çəkilən namizədlərin özünəməxsus əməyi vardır.*

*Sonra komitədə yeni vəzifələrə təqdim olunmuş namizədlərin çıxışları dinlənilib. Namizədlər göstərilən etimadı doğrultmaq üçün bütün imkanlarını səfərbər edəcəklərini bildiriblər.*

*İclasda çıxış edən komitə sədrinin müavini Əli Məsimli, deputatlar Ziyad Səmədzadə, Vahid Əhmədov, Vüqar Bayramov və Mahir Abbaszadə Hesablama Palatasının sədr müavini və auditorları vəzifələrinə irəli sürülmüş namizədlərə müsbət münasibət bildiriblər, onlara təmsil etdikləri qurumun işlərini yeni dövrün çağırışlarına uyğun qurmaqda uğurlar arzulayıblar, təklif və tövsiyələrini diqqətə çatdırıblar.*

*Fikir mübadiləsinin yekununda komitənin rəyini bildirən Tahir Mirkişili qeyd edib ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi namizədliyi irəli sürülmüş bu şəxslərin həmin vəzifələrə təyin olunmasını məqsədəuyğun hesab edir.*

*Sonda məsələ Milli Məclisin plenar iclasına tövsiyə olunub.*

*Nicat Novruzoğlu*

# Şəhid ailələri və müharibə əlillərinə daha 50 mənzil təqdim edildi

**Bakının Ramana qəsəbəsindəki yeni yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə daha 50 mənzil təqdim olunub.**

Adalet.az xəbər verir ki, tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov, şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, keçmiş xüsusi təyinatlı, polkovnik leytenant İlham Rüstəmov, Vətən müharibəsi qazisi Vidadi Ağagülov və başqaları iştirak ediblər.

V.Behbudov bildirib ki, Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlərlə təminatı proqramı ildən-ilə geniş miqyas alır. Nazirlik tərəfindən bu kateqoriyalardan olan vətəndaşlara 2018-ci ildə 626 ədəd, 2019-cu ildə 934 ədəd, 2020-ci ildə 1572 ədəd mənzil və fərdi ev verilib. 2021-ci ildə isə 3 minədək mənzil və fərdi ev veriləcək. Bu da mənzil və



fərdi evlə təminat proqramının 2018-ci ilə nisbətən 5 dəfəyə yaxın genişləndiyini göstərir.

2021-ci ilə dair plan üzrə artıq 100 mənzil təqdim edilib, ümumilikdə ötən dövrdə isə onlara 9250 mənzil və fərdi ev verilib.

S.Orucova, İ.Rüstəmov, V.Ağagülov 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı tarixi Zəfərimizlə xalqımızın sonsuz iftixar hissi keçirdiyini vurğulayıb, düşməndən şəhidlərimizin qisasının alındığını qeyd ediblər. Onlar şəhid ailələrinin və müharibə əlillərinin qayğı ilə, dəstəklə əhatə olunması sahəsində dövlət tərəfindən aparılan işlərdən razılıqla bəhs ediblər.

**Şəhid ailələri və müharibə əlilləri onların sosial müdafiəsinə göstərilən diqqət və qayğıya, bu gün yeni, mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.**

*Mehman Cavadoğlu*

# SÜLH DƏHLİZİ

**Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin Xarici İşlər naziri Anna Lindeni qəbul edərkən deyib: "Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir". Daha sonra danışıqların müxtəlif səviyyələrdə bir neçə mərhələsinin keçirildiyinə toxunan dövlət başçısı bildirib ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər: "Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu, bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik".**

Bölgədəki kommunikasiyaların açılması Dağlıq Qarabağ münaqişəsi başlayan vaxtdan bu günə kimi bütün danışıqların, müxtəlif səviyyəli və səpgili ekspert rəylərinin başlıca predmetlərindən biri olub, ərazi mübadiləsi, yaxud digər prinsiplərə əsaslanan müxtəlif nizamlama variantları və təkliflərinin ana xəttini təşkil edib. Çünki adına hər nə qədər humanitar dəhliz deyilsə də, onun işlək hala gətirilməsi əslində, böyük geopolitik hadisədi, təkcə Azərbaycanla Ermənistan yox, bütövlükdə bütün region ölkələri və regionda maraqları olan dövlətlər üçün cəlbedici məsələdi. Ancaq birinci növbədə və hamıdan çox məhz Ermənistana lazımdı. Təbii ki, kommunikasiyalar deyəndə söhbət ermənilərdən başqa heç kimə lazım olmayan Laçın dəhlizindən yox, Qərblə Şərqin, Şimalla Cənubun kəsişmə nöqtəsində yerləşən Zəngəzur dəhlizindən gedir.

Əslində, elə Zəngəzur dəhlizi də hamıdan çox məhz onlara lazımdı. Naxçıvanla quru əlaqəsinin yaradılması baxımından bizdən ötrü nə qədər mühüm olsa da, Azərbaycanın onsuz ötüşmək ikmanları yetərincədi. Bu yolun 30 ildir ki, bağlı qalmasına rəğmən muxtar respublikanın inkişafına elə mühüm əngəl törətməməsi dediyimizə əyani sübutdu. Region ölkələri və regionda maraqları olan dövlətlərə gəlincə, belə baxanda nə onlar, nə də heç kal almurd olub ermənilərin boğazına keçmiş Türkiyənin özü bu dəhlizə möhtac deyil. Bakı-Tiflis-Qars dəmir yolu artıq işə düşüb və qardaş ölkənin yükləri bu xətt vasitəsiylə Orta Asiya və Çinə daşınmaqdadı. Sadəcə, bir az məsafə uzaq düşür ki, ümumi yolun uzunluğu fonunda bu o qədər də ciddi itki deyil, yox, söhbət Ermənistanın qorxduğu, daha doğrusu, Şimal süzerenini qorxutduğu Turan siyasi dəhlizindən gedirsə, ümumiyyətlə, itki deyil. Çünki heç kim böyük siyasi ambisiya və maraqları müstəvisində belə xırda iqtisadi vasvasıçılıq eləməyi özünə rəva görməz.

Bütün bunlara baxmayaraq, Azərbaycanın öz torpaqları üzərində suveren hüquqlarının tam şəkildə bərpasının qarşısını alan və yaxud məsələni xeyli uzadan 10 noyabr 2020-ci il və daha sonra qəbul edilmiş, yalnız kommunikasiyarın açılmasını nəzərdə tutan 11 yanvar 2021-ci il bəyanatlarının müddəaları yerinə yetirilməli və bu dəhliz açılmalıdı. Ancaq Ermənistan ölkədəki daxili gərginliyi bəhanə edərək məsələni uzatmağa, hətta birdəfəlik gündəlikdən çıxartmağa çalışır. Baş nazirin mətbuat xidmətinin rəhbəri Mane Gevorkyanın10 noyabr bəyanatında bu barədə heç bir müddəanın olmaması barədə bir neçə gün əvvəl söylədiyi həyasız yalan da məhz buna hesablanıb.

Bütün geopolitik ritorikaları bir kənara tullayıb məsələyə sırf humanitar prizmadan yanaşsaq belə Zəngəzur dəhlizinin açılması bu gün Azərbaycanın, eləcə də bunu öz imzasıyla təsdiq eləmiş Putinin əsas hədəflərindən biri olmalıdı. Ermənistandakı siyasi gərginlik Azərbaycanın problemi deyil, Putin üçünsə, ümumiyyətlə, problem deyil. Çünki bu ölkədə ağızağıza yatan hərbi-siyasi liderlər arasında onun iradəsinə qarşı çıxan bir kimsə yoxdu. Zəngəzur dəhlizi açılmayacaqsa, onda Laçın dəhlizi də bağlanmalıdı. Ən pis halda dəhlizin Ermənistanla sərhəd-keçid məntəqəsi rus sülhməramlılarıyla birgə Azərbaycan sərhədçiləri və gömrük orqnlarının birgə nəzarətinə verilməlidi. Artıq köçən köçüb, qayıdan qayıdıb, indi bu məntəqə dinc sakinlərdən daha çox terrorçularına, bir də Azərbaycanla onun erməni əsilli vətəndaşları arasında barışıq mühitinin yaradılmasına mane olan, düşmənçilik hisslərini körükləyən qisasçı erməni siyasətçilərinə və onların üzdəniraq xarici dostlarına xidmət eləyir. Keçid məntəqəsinə birgə nəzarət variantının rəsmi Kreml tərəfindən hətta ehtimal kimi səsləndirilməsi faktının özü hazırkı durumda ermənilərin Sünik vay-şüvənlərinin üstünə su səpmək üçün yetərlidi.

Diversiya və terror aktları törətmək üçün Martuniyə gətirilmiş, bir qismi Azərbaycan ordusu tərəfindən məhv edilmiş, əksəriyyəti əsir götürülmüş erməni əsgərləri də, Amerikalı müstəqil bloger Lankasterin reportajı vasitəsilə faş olunmuş, tikinti materiallarının altında gizlədilərək Qarabağa daşınan çağırışçılar da, hələ birinci Qarabağ müharibəsi vaxtı əli dirsəklərinə kimi dinc Azərbaycan vətəndaşlarının qanına batmış odioz terrorçular da Qarabağa məhz rus sülhməramlıları tərəfindən buraxılır və bütün dəhliz buyu onların nəzarəti altında hərəkət eləyirlər. Bu yaxınlarda VOMA terror təşkilatının başçısı, Rusiya Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin keçmiş əməkdaçı Vova Vartanov adlı qatı bir terrorçu da öz dəstəsiylə Araik Arutunyandan mükafat almaq üçün məhz həmin yolla Xankəndiyə gəlmişdi.

Azərbaycan Baş prokurorluğu hələ keçən ilin noyabrında bu VOMA-nı terrorçu təşkilat elan etmiş, onun başçısını beynəlxalq axtarışa vermişdi. İndi Azərbaycanın öz ərazisində yerləşmiş sülhməramlı kontingetin bu ölkənin ali orqanının qərarını saya saymamasının, Vartanovu tutub Azərbaycan hüquq mühafizə orqanlarına təhvil vermək əvəzinə öz müşayətiylə qeyri-legitim bir hakimiyyət orqanı rəhbərinin hüzuruna gətirməsinin adı nədir? Onların vəzifəsi münaqişə bölgəsində qarşı duran tərəflər arasında mühafizə səddi çəkməkdi, yoxsa separatçılara və terrorçulara himayədarlıq eləmək, bu azmış kimi, üstəlik, bölgənin idarəçiliyi ilə məşğul olmaq? Yeri gəlmişkən, vaxtilə gözü ayağının altını görməyən Paşinyanın təkəbbürlü açıqlamaları, sərxoş Şuşa perfomansları öz başında çatlayan kimi, Araikin də qıcıq doğuran bu cür düşük hərəkətləri cəzasız ötüşməyəcək.

Rus sülhməramlılarının belə sərbəst davranışları təkcə Kremlin özünü bölgənin əsl sahibi saymasından qaynaqlanmır. Bu gün həmin sülhməramlıların mövcudluğu və ermənipərəst mövqeyi Qərbin də maraqlarına cavab verir. Təsadüfi deyil ki, Rusiyanın hər hansı kiçik bir siyasi iddiasını və geopolitik cəhdini, hətta ən əhəmiyyətsiz sosial-iqtisadi layihə və təşəbbüslərini süngüylə qarşılayan Avropa da, onun okeanın o üzündəki yaxın müttəfiqləri də heç bir beynəlxalq mandata malik olmayan, heç kimin, heç bir qurumun qarşısında məsuliyyət daşımayan, yalnız Putinin şəxsi göstərişləriylə hərəkət eləyən belə bir kontigentin ora yerləşdirilməsini az qala toy-bayramla qarşıladılar. Bu missiyanın fəaliyyətinin heç bir hüquqi akt və mexanizmlərlə tənzimlənməməsi hüququn aliliyini təkcə idarəçilik prinsipi yox, mənəvi dəyər sayan demokratiya təəssübkeşlərinin yadına da düşmədi. Təbii ki, Rusiyaya yox, ermənilərə olan sevgi ucbatından. Onların bu 30 ildə üzdə nə deməklərindən asılı olmayaraq, daldada Azərbaycanı özlərinin fəaliyyətləri və fəaliyyətsizlikləri nəticəsində yaratdığları həmin reallıqlarla barışmağa təhrik etməklərinin kökündə də məhz bu erməni vurğunluğu dayanırdı.

Laçın dəhlizi yuxarıda da dediyimiz kimi yalnız ermənilərə lazımdı və o üzdən də hazırda humanitar dəhlizdən daha çox eskalasiya vasitəsinə çevrilib. İndi Azərbaycanda hansısa erməni icması var deyə ordan Ermənistana dəhliz açmaq bizim boynumuzun borcu deyil. Akademik Marın qaraçı soyunun bir qolu adlandırdığı bu qövm dünyanın müxtəlif yerlərində öz taborlarını salıb. Bu məntiqlə Ermənistandan, məsələn, Krasnodara, Livana, Suriyaya, Marselə, Kaliforniyaya, nə bilim, daha haralara çoxsaylı dəhlizlər salınmalıdı.

Nə isə...

**Rusiya qarşısında tələb qoyulmalıdı ki, ya Laçın dəhlizini bağlamalı, ən azından Laçın-Gorus keçid məntəqəsinə Azərbaycanla birgə nəzarət etməli, ya da Zəngəzur dəhlizinin açılmasıyla bağlı öhdəliyini tezliklə yerinə yetirməlidi. Laçın dəhlizi təkcə ermənilərə xidmət edirsə, Zəngəzur dəhlizi hər iki tərəfə lazımdı. Məhz bu üstünlük onu Laçın dəhlizi kimi eskalasiya yox, sülh dəhlizinə çevirəcək. Təbii ki, əgər ermənilər minillik xəstə vərdişlərindən əl çəksəlr. Yox yenə də öz mifik arzularını əsiri olaraq qalacaqlarsa, qonşularla dil tapıb dinc yanaşı yaşamaq əvəzinə xislətlərinə yaxşı bələd olduqlarına görə tarix boyu onlardan öz maraqları naminə istifadə edib dar ayaqda güdaza verən böyük dövlətlərin mərhəmətinə qısılmaqla xəstə xəyallarına qovuşmaq sevdasından əl çəkməyəcəklərsə, onda heç nə alınmayacaq, Dəmir yumruq Domokl qılıncı kimi daim başlarının üstündə hazır olacaq.**



Emin Piri

# Novruzun «papağı»

Əvvəllər "Novruz" deyərkən ilk ağla nə gəlirdi, bunu deyə bilmərəm, amma indiki yeniyetmə və gənclərin yadına daha çox papaq atmaq kimi düşür. Bəli, məhz papaq atmaq. Doğrudanmı, bəşəriyyətin mil illərdir qeyd etdiyi, bir Novruzdan digərinə kimi həvəslə gözlənilən bu bayram papaq atmağın simvoluna çevrilməli və yaxud yada düşməlidir?! Bəli, papağı ayaq altına atmağı bayram qeyd edirik, bunun həsrətilə yaşayır və sonda bununla fəxr edirik. Bu günkü TV və digər təbliğat vasitələrində, verilişlərdə az qala bundan ağızdolusu danışılması, simvollaşdırılması heç də ürəkaçan deyil və türklərin minilliklər fəlsəfəsini özündə daşıyan bir bayramın mahiyyətini dəyişir.

*Tarixə ekskursiya edərək sizi yormaq istəməzdim. Qısa xatırlatma kifayət edər. Sovet dönəmindən öncə bayram günlərində papaq yerinə evin bacasından çuval sallayardılar.*

*Bacanısa göyə-Tanrıya açılan bir "yol" kimi yozsaq, bu çuval sallamanın Tanrı xatirinə istənilən hədiyyə və təbrikləşmə olduğunu qeyd edə bilərik. Ev sahibi isə şükranlıq əlaməti olaraq bayram hədiyyələrini bacaya-Tanrıya açılan yolla geri qaytarardı. Bəlkə də bizim aradığımız bu metafizik qatlar sadə kütlənin düşünülməmiş şəkildə instinkt vərdişi idi. Amma bu, Tanrıya şükranlıq fəlsəfəsi türklərin, şərq xalqlarının İslamdan da çox uzaqlara gedən, öz genetikasında qoruyaraq saxladığı bir ayin idi.*

*Kommunizmin "allahsızlıq" dövründə isə tanrıya açılan "yol"-baca qapıyla əvəzləndi. Yəni göydən yerə enmək-bacadan qapıya keçmək. İdealizmdən materializmə keçmək.*

*Düşünürəm ki, bütün bunlarda da metafizik qat var. Ola bilsin, adi gözlə görmədiyimiz, ağlımıza gəlməyən, şüuraltı qatlarda yatan nəsnələr və simvollardır.*

*Şərq amili kimi qəbul etməyə çalışdığımız papaq atmaq, kimisi tərifləyərək və ya təbrik edərək papaq uzatmaq isə daha çox Qərbdə həyat şəraitinin çətin olduğu dönəmlərdə dilənmək məqsədilə yayılmışdı. Və bu daha mədəni dilənçilik sayılırdı.*

*Bəli, mentalitet söhbətlərini sevməsəm də, yenə el deyimi ilə qeyrət rəmzi olan, başımızda göz bəbəyi kimi gəzdirdiyimiz papağı hansı vicdana, əqidəyə, namusa sahib olduğu bilinməyən birinin ayağı altına atırıq. İki qoza görə dəyərmi?!*

*Düzü, XXI əsrdə, Bakıda bacaya, Novruz adətlərinə qayıtmağa çarə tapmaqda acizəm. Amma türk ayinlərinin ən azından mahiyyətinə varmağa və qayıtmağa dəyər.*

*Papağımızı atmayaq, geyinək!*

## Ukrayna: 4 ölkə bizi aldatdı, imtina etdik...



**Bizim missiyamız əvvəlcə Krım platforması yaradıb, bizi təkcə siyasi bəyanatlar yox, real addımlarla müdafiə edəcək maksimum tərəfdaş cəlb etməkdir.**

Bunu Ukrayna baş nazirinin müavini Aleksey Reznikov deyib.

"Ukrayna dünyada üçüncü nüvə potensialından Rusiya, ABŞ, Britaniya, Fransaya güvənərək imtina etmişdi. Bizə vəd edilən öhdəliklər yerinə yetirilməlidir. Yeri gəlmişkən, Leonid Kuçma (eks-prezident) mənə bir dəfə dedi ki, Minskdə aparılan ağır danışıqlardan sonra o zamankı Fransa Prezidenti Fransua Mitteran ona "Cavan oğlan, sizi istənilən halda aldadacaqlar" deyə kinayəli ifadə ilə müraciət edib. Belə də oldu, bizi aldatdılar. Biz Rusiyanın hesablaşacağı və danışıqlar masasına oturacağı yeni alyans gözləyirik", - deyə o bildirib. Reznikov Ukraynanın Krımı və Donbası heç vaxt unutmayacağını deyib. Onun sözlərinə görə, ruslar Donbasda savaşın 2015-ci ildə bitəcəyini gözləyirdilər, amma 2021-ci ildir və hələ də heç nə bitməyib.

## Türk ordusu PKK-nın sığınacaqlarını məhv etdi



**Türkiyə Silahlı Qüvvələrinin Tunceli əyalətində keçirdiyi əməliyyat nəticəsində terrorçuların bir neçə sığınacağı məhv edilib.**

Hozat rayonunda baş tutan "Ərən-7 Mərcan Munzur" əməliyyatı nəticəsində terrorçuların beş sığınacağı aşkar olunaraq məhv edilib. Regionda terrorizmlə mübarizə üzrə əməliyyat davam edir.

## İki türk ölkəsi razılığa gəldi: Unqar qırğızlara verilir...

**Qırğızıstanla Özbəkistan arasında sərhəd xətti ilə bağlı mübahisəli durum həllini tapıb.**

Bu barədə Qırğızıstan Prezidentinin mətbuat xidmətinin rəhbəri Qalina Bayterek məlumat yayıb. O qeyd edib ki, iki ölkə arasındakı mübahisəli məsələnin 3 ay ərzində həll edilməsi barədə razılıq əldə olunub: "Qırğızıstan sərhədləri daxilində yerləşən Özbəkistanın anklavı olan Soh bölgəsinə quru və hava nəqliyyatının təmin edilməsi qarşılığında siyasi gərginliyin predmeti olan Unqar təpəsi qırğızlara təhvil veriləcək".

Bayterek bildirib ki, sərhəd probleminin həlli ikitərəfli münasibətlərin inkişafına yeni təkan verəcək. Digər mübahisəli sərhəd əraziləri isə xüsusi komissiya tərəfindən həll ediləcək.

**MEHRİBAN**

# Zəngilanın meşələrinə dəymiş zərər açıqlandı

**Dendrologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tofiq Məmmədov Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri ilə birgə işğaldan azad olunan Zəngilan rayonunun təbiət və meşələrinə dəymiş zərərin monitorinqi məqsədilə əraziyə baxış keçirib, vizual müşahidələrə əsasən bitki örtüyü təhlil edilməklə bölgənin monitorinqini aparıb.**




AMEA-dan Adalet.az -a bildirilib ki, Ermənistan tərəfindən ərazilərimizin işğal edilməsi nəticəsində Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə vurulmuş zərərin miqdarı böyükdür. Qarabağın təbii sərvətləri, xüsusən bitki ehtiyatları ermənilər tərəfindən amansızcasına talan edilib. 30 il ərzində işğal altında qalan torpaqlarımızdan çıxarılan qızıldan sonra ən çox talan edilən meşələrimizdir: "Çinar meşəsinin bir hissəsində ağaclar qırılıb məhv edilib. Zəngin biomüxtəlifliyə malik Azərbaycan təbiətinin bir parçası olan Zəngilan rayonunda yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunda isə ətraf mühitə vurulan ziyanın məbləği ölçüyə gəlməz dərəcədədir.

Ümumi sahəsi 107 hektar olan qoruq ermənilər tərəfindən talan edilməklə əhatəsindəki bitki örtüyünün tamamilə məhv olmaq təhlükəsi yaranıb. Qırmızı palıd ağacları kökündən çıxarılaraq doğranılıb, mebel istehsal edilib və çox hissəsi isə xarici ölkələrə satılıb. Bütün bunlar ermənilərin təbiətə, təbiət abidələrinə, bütövlükdə ekologiyaya vurduğu terror zərəridir".

Monitorinq nəticəsində ərazinin dağlıq hissəsinin meşə örtüyündə iberiya palıdı (Quercus iberica) və Qafqaz vələsi (Carpinus caucasica), ardıcın 2 növünə - ağıriyli ardıc (J.foetidissima), alçaqboylu ardıc (Juniperus depressa Stev.) və kütyarpaq saqqızağacına (Pistacia mutica), qarışıq çinarlıqlarda qoz, dağdağan, tut, söyüd, qovaq, yemişan, itburnu, murdarça, quru-bozqır, dağ kserofil bitkiləri, kolluqlar, qaratikan və s. rast gəlinib.

"Ərazidə iqlim dəişkənliyi və antropogen amillər bitki örtüyünün qismən dəyişməsinə səbəb olub. Qoruğun mövcud vəziyyətinin qiymətləndirilməsi üçün monitorinq qrupunun gəldiyi ümumi nəticəyə görə, burada Şərq çinarı ağacları kəsilib, qırılan ağacların köklərinin itirilməsi üçün müxtəlif partladıcı maddələrdən istifadə edilib, ərazidə yanğınlar törədilib ki, bu da qoruğun dağıdılmasına səbəb olub. Belə faktlar isə ekoloji terrordan başqa bir şey deyil".

# Məktəblərdə dezinfeksiya hansı şəkildə aparılır?

***Dezinfeksiyaedici maddələr ocaqlı və profilaktik dezinfeksiya məqsədilə istifadə olunur. Ocaqlı dezinfeksiyada infeksion xəstəlik keçirmiş xəstənin olduğu yer dezinfeksiya edilir, profilaktik dezinfeksiyadan isə infeksion xəstəliyin yaranmasının qarşısını almaq üçün istifadə edilir. Bu məqsədlə virus və bakteriyaların daha cox yayılmasına səbəb olan yerlər- əhalinin sıx məskunlaşdığı ərazilər, məktəblər, müəssisələr dezinfeksiya olunur.***

Adalet.az-ın məlumatına görə, bunu Səhiyyə Nazirliyi Bakı Şəhər Dezinfeksiya Mərkəzinin baş həkimi Akif Məmmədov deyib.

O qeyd edib ki, dezinfeksiya edici maddələr mikroorqanizimləri yəni xəstəlikləri virus və bakteriyaları qısa müddətdə məhvetmə xüsusiyyətinə malik olmalıdır, həmçinin insan orqanizmi üçün də zərərsiz olmalıdır: "Təhsil müəssisələrində dezinfeksiya işləri adətən nəm üsul ilə aparılır. Bu üsulda məktəblərdə dezinfeksiya işləri apardıqdan 2 saat sonra nəm dəsmal ilə silinməlidir. Dezinfeksiya məqsədilə bromosept istifadə olunur. Bu zaman da sinif otaqlarını partaları pəncərəaltlıqları, pilləkən tutacaqları dezinfeksiya olunur.



Profilaktika məqsədilə həftədə 1 dəfə ancaq məktəbdə infeksion xəstəlik aşkar olunarsa istisna olaraq həmin ərazi ocaqlı dezinfeksiya olunur. Bu dezinfeksiyalarla yanaşı məktəblərdə növbələr arası cari dezinfeksiya işləri də aparılmalıdır.

Bu maddələr normalda insan orqanizmi üçün zərərsizdir, amma ehtiyatsızlıq nəticəsində əlimiz dəysə və yaxud da hər hansı nahiyyəmizə təmas etsə ziyanı ola bilər. Əldə, dəridə qaşınma, qızartı gözdə göynəmə hissi yarana bilər.

Əsasən təhlükəsizlik qaydalarına diqqət etməliyik. Bunun üçündə ilk öncə bu işi görən işçilər xüsusi geyimlərlərdən (xüsusi əlcək, maska, eynəklərdən) istifadə etməlidir. Digər insanların təhlükəsizliyi üçün müvafiq əməkdaşlar təlimatlandırılır".

## ÜST-ün baş direktoru Azrərbaycana təşəkkür etdi

*Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Qebreyesus BMT-nin Cenevrə Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Azərbaycan daimi nümayəndəliyinin təşkilatçılığı ilə baş tutan Qoşulmama Hərəkatına üzv dövlətlərin səfirləri ilə videoformatda keçirilən müzakirələrə qatılıb.*

*ÜST rəhbəri bu barədə "Twitter" hesabında paylaşım edib.*

*Müzakirələrin məhsuldar keçdiyini bildirən T.Qebreyesus hazırda Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycana koronavirusla bağlı BMT-nin xüsusi sessiyasının keçirilməsi və BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bağlı qətnamənin irəli sürülməsinə görə təşəkkür edib.*

*Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin yanvarın 31-də keçirilən onlayn Zirvə toplantısında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından qətnamə layihəsi ilə çıxış etməyi planlaşdırdığını bildirmişdi. Koronavirusa qarşı peyvəndlərə ədalətli çıxışın təmin edilməsi ilə bağlı həmin qətnamə layihəsi Azərbaycan tərəfindən İnsan Hüquqları Şurasında artıq irəli sürüb.*

## AQTA-dan pandemiya ilə bağlı hesabat

**1 fevral - 14 mart tarixlərində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) 26 662 monitorinq həyata keçirib və 1 307 nöqsan aşkar edib.**

Bakı şəhəri üzrə ən çox nöqsan Xətai rayonunda (28), ən az isə Qaradağ və Suraxanı rayonlarında (hər birində 5) aşkar edilib. Ən çox aşkar olunmuş nöqsanlar:

- İşçilərin tibbi maskadan istifadəsinə nəzarət edilməməsi (istifadə etməmələri) və tibbi maskanın təmin edilməməsi - 1110 (84 %);

- İctimai iaşə müəssisələrində müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normalarına riayət olunmaması - 138 (10%);

**Ümumilikdə, 25.09.2020-ci il tarixdən etibarən AQTA tərəfindən ölkə üzrə fəaliyyət göstərən ictimai iaşə müəssisəsində 59 336 monitorinq həyata keçirilib və 3408 nöqsan aşkar edilib.**

# ABŞ VAKSİNASİYA PROSESİNƏ MANE OLUR

**Hindistanın "Astra Zeneca"" və "Johnson & Johnson" vaksinləri hazırlayan iki aparıcı şirkəti xəbərdarlıq ediblər ki, ABŞ-ın pandemiya ilə bağı eksport qadağaları dünyada vaksin istehsalını təhlükə altına salır.**

Bu barədə məlumat verən "Financial Times" qəzetinin məlumatına görə, farmasept şirkətinin icraçı direktoru Bological E Maximı Datlı bəyan edib ki, amerikanının xaricə idxal edən nümayəndələri, müqavilə bağladığl müştərilərinə Vaşinqtonun qadağalarına görə vaksin göndərə bilməyəcəklər.

Bildirilir ki, hələ ötən ilin sonlarında ABŞ -ın yeni seçilmiş prezidenti Co Bayden, müharibə şəraiti qanunlarına istinad edərək, ölkədə COVİD- 19 vaksinasiyasının keçirilməsinin sürətləndirilməsini həyata keçirəcək. "Bu isə koronavirus əleyhinə vaksinlərin paylanması məsələsini çətinləşdirəcək və eyni zamanda adi vaksin istehsalının tədbiqinə mane olacaq" - deyə Maxima Datla, beynəlxalq ictimayyətin bu məsələyə müdaxilə etməsini tələb edib. Vaksin istehsalı üçün vacib olan plastmast materialının məhdud sayda hazırlanması istehsalı çətin vəziyyətə salır. "Serum İnstitute" şirkətinin icraçı direktoru Adar Punavellada hərbi vəziyyət qanunu, dünyanın vaksinasiya ilə səylərini heçə endirir. ""Novalax" vaksinlərini hazırlayan ən böyük şirkət olaraq, ABŞ -dan alacağımız bu materiala böyük ehtiyacımız var. Əgər biz bu xammalı ABŞ-dan gətirə bilməsək vaksin istehsalında ciddi çətinliklərlə üzləşəcəyik" - deyə o, bildirib.




ABŞ - Hərbi istehsalla bağlı qanun 1950-ci ildə qəbul olunub. Bu qanun ABŞ-ln federal hökumətinə şəxsi şirkətlərin eksterni hallarda de-fakto hökumətə işləməsinə məcbur edə bilər.

**Beləliklə Vaşinqton rəhbərliyi düyanın "əsi ağasının kim olduğunu" nümayiş etdirməklə, bir daha pandemiya ilə bağlı vaksinasiya prosesinə "badalaq" vurmaqda davam edir.**

**Rüstəm Hacıyev**

# Ata Abdullayevi hansı cəza gözləyir?

**Hədə qorxu ilə tələb etməkdə təqsirləndirilərək həbs edilən videobloger Ata Abdullayevi ağır cəza gözləyir.**

Bu barədə Trend-ə Vəkillər Kollegiyasının İdarə Heyətinin üzvü, hüquqşunas Vüqar Babayev deyib.

O bildirib ki, A.Abdullayevə veriləcək cəza ibtidai istintaqın nəticəsindən asılıdır:

"İlkin olaraq A.Abdullayev Cinayət Məcəlləsinin



182.2.2-ci ( Hədə-qorxu ilə tələb etmə, təkrar törədildikdə) maddəsilə təqsirləndirilir. Əgər o təkcə bu maddə ilə təqsirləndirilərsə, A.Abdullayev 5 ildən 10 ilədək azadlıqdan məhrum edilə bilər. Bundan başqa, həmin maddə ilə cinayəti sübuta yetirilərsə A.Abdullayevin əmlakı da müsadirə edilə bilər. Amma ibtidai istintaqda əlavə faktlar da ortaya çıxarsa, onu daha ağır cəza gözləyir. Əgər ibtidai istintaq dövründə onun külli miqdarda əmlak əldə etməklə hədə-qorxu ilə tələb etmə faktı aşkarlanarsa, bu halda A.Abdullayevi əmlakı müsadirə edilməklə 10 ildən 15 ilədək cəza gözləyir. Bu istintaqın gedişatından asılıdır".

**Xatırladaq ki, videobloger A.Abdullayev Bakıda vətəndaşlardan hədə-qorxu ilə pul tləb edərkən saxlanılıb. Səbail rayon məhkəməsinin qərarı ilə onun barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.**

Rəşad Məcid



# Qorxu

*Dünən Ağdama üzürlü səbəbdən gedə bilmədim.*
*Amma...*
*Həm də...*
*Düzü, Ağdama getməyə qorxuram!*
*Ağdamın indiki vəziyyətini canlı görməyə qorxuram.*

*Dünən oğlum Mirhacib getmişdi. Ona dedim, Ətyeməzlini keçib şəhərə girəndə sağda xəstəxananın, Doğum evinin binası var, bəlkə, uçuqları qalıb, sən 1987-nin avqustunda orda doğulmusan. Onda "Kimsən ey , doğulan" şeirimi yazmışdım. Qayıdanda soruşdum , dedi ki, indi nə o xəstəxanadan, nə də şəhər boyu uzanan bağlardan, hündür ağaclardan əsər-əlamət qalıb.*

*Ağdam deyəndə gözümün önünə ötən əsrin 70-ci, 80- ci illərinin Ağdamı gəlir. Hərdən xəyalımda da gəzirəm: 1 nömrəli məktəbdən çıxıb bazarın önüylə gedib, tində -Aptekin yanından sağa dönürəm, Nadirin "Dijurnu mağaza"sını keçib, Tağının kitab mağazasına dəyib ya 10 yaşımacan yaşadığımız Dördmərtəbənin qabağıyla Musavi küçəsindən, südsatan Lətafət xalanın budkasının tinindən Lenin bağına burulub, çay evinin, məscidin üstünə çıxıram, üzü yuxarı şuşa yoluyla Fərhadın heykəlinə, Dram teatra sarı addımlayıram, ya da üzümçülər sarayının yanından keçib məşhur Fazil Qasımovun direktoru olduğu Kinoteatra tərəf gedirəm, Zeynalın çayxanasında çay içirəm.*

*Ya da ki qayıdıb Laura müəllimənin musiqi məktəbi tərəfdən gəlirəm, Voroşilov küçəsinin tinindən Milis idarəsinə doğru. Palıd ağaclarının meh əsdirən yarpaqlarından qopan pıçıltı "Pionerlər evin"dən gələn tar-kaman səslərində əriyib itir, məşhur "Qarabağ bülbülləri"nin Murad Rzayevin rəhbərliyiylə növbəti məşqinin sədalarını eşidirəm. Vahidgilin evinə tərəf, Köhnə hamam məhləsinə dönürəm. Onda bilmirdim ki, bu hamamı da Natəvan tikdiribmiş. Dünən Vilayət Quliyevin statusunda oxuyub bildim.*

*Əli İbrahimov, döngə 1 , ev 19-a - evimizə tərəf gedirəm.*

*Vahidi görürəm, evlərinin pəncərəsində baxır, 30 il sonra yazacağı "Ruhlar şəhəri" kitabınımı düşünür? Ayırmıram onu xəyallarından, eləcə əl edib keçirəm...*

*Noyabrın 20- də bizim əsgərlər Ağdama girib, Cümə məscidindən ilk videonu paylaşanda sarsılmışdım: hanı bəs çay evi , hanı Dördmərtəbə, hanı 1 nömrəli məktəb?*

*Qəzəbimi belə ifadə etmişdim:*

*"Allah heç kimə, heç bir xalqa belə namərd düşmən qismət eləməsin! Vəhşi millət, səninlə necə yanaşı yaşamaq olar? Niyə bizim şəhərlərimizi bugünə qoymusan? Etdiklərinin beşqat artığına layiqsən!.."*

*İndi mən qorxuram!*

*Gedib Ağdamın xarabalıqlarını görsəm, xatirələrimin uçub dağılacağından qorxuram!*

*Bir də xəyalən Ağdamın küçələrini gəzə bilməyəcəyimdən qorxuram!..*

Səxavət Məmməd

# Sorğusuz, sualsız hər bir ev tikilməlidir



**İşğaldan azad edilmiş yerlərə köçürülmə ətrafındakı xəbərlər şəxsən məni çox narahat edir. ADA universiteti sorğu keçirir. Bir universitetin keçirdiyi sorğu heç vaxt əsas götürülə bilməz. Biri mən. Xəbərim var, ancaq iştirak etmirəm. Etməyi düşünmürəm də. Çünki bu bütün qarabağlıları əhatə edə bilməz. Üstəgəl ölkədə hər kəs internetdə sərbəst işləyə bilmir. Hələ də internetə şeytan əməli kimi baxanlar var. İnsanların fikrini öyrənməyin ən asan yolu icra nümayəndəlikləridir.Mənə görə bu mövzuda nəinki sorğu keçirilməli, heç rəy belə öyrənilməli deyil.**

**Qarabağda müharibə olub, talpa davası yox. Ermənistan dəxli yoxdur kimin dəstəyi ilə, birinci müharibədə qalib gələrək torpaqlarımızı işğal etmişdi. Müharibənin nəticəsinin məsuliyyəti Azərbaycan dövlətinin üzərində idi. O satdı, bu xəyanət etdi, hakimiyyət davası gedirdi tipli fikirlər daxili məsələlərdi. Hakimiyyətə gələn və iddialı olan hər kəs Qarabağla bağlı vədlər verib. Demək ki, məsuliyyəti də öz üzərinə götürüb.**

**Dəxli yoxdur Qarabağda gedib yaşayacaq, yoxsa yox. Əgər kiminsə orda evi olubsa, tikilib verilməlidir. Özü bilər yaşayacaq, ya yox. Təkrar edirəm, Azərbaycan dövlətinin ərazi bütövlüyü pozulmuşdu, kiminsə evi yox.**

**Azərbaycan dövləti dəymiş zərərə görə kiməsə təzminat ödəyib? Yox, çünki işğal faktı ilə barışmayıb. Dəymiş ziyana görə Ermənistandan təzminat alınıb? Yox. Yəni, istədi, istəmədi, o ev tikilməlidir. Kimsə ümumiyyətlə istəməsə, təzminatı ödənməlidir. Guya, hamı öz doğulduğu yerdə yaşayır?**

**Ölkədə kəndlərin çoxu boşdu. İşsizliyə görə millət ya Rusiyaya üz tutub, ya Bakıya. İndi onlar kəndlərindəki evlərindən məhrum olmalıdırlar? Bu nə məntiqdir?**

**Lap çadırda, vaqonda, daxalda, yataqxanada yaşamayıb. Dövlətin zəifliyi, gücsüzlüyü ucmatından adamın mülkiyyət hüququ pozulub. Rəy soruşmaq nə deməkdir?**

**Sorğusuz, sualsız hər bir ev tikilməlidir. Kimsə deyəcək ki, şəhərdə çoxlu evi var, dövlət niyə tikməlidir? Sənə nə? Məmurların az qala ölkənin hər bölgəsində villası var. Dilin çönüb deyə bilirsən?**



Maşallah Məftun,
siyasi şərhçi

**Azərbaycan, Avropayla Asiyanın kəsişməsində yerləşən, müstəqil bi dövlətdir. Özünün Vətən Müharibəsində qandığı tarixi qələbəsiylə dünya gündəmindən düşmür. 30 ilə yaxın erməni işğalçılarının nəzarətində olan torpaqlarımız xarabalıqları xatırlatsa da bu gün tikinti meydanına çevrilmişdir. Böyük qayıdış Azərbaycanın ayrılmaz parçası olan Qarabağa uğur gətirəcək. Özünün əzəmətiylə, göəlliyi ilə dünyanı heydan qoyan Qarabağ dünya turistlərini yenidən özünə heyran edəcək, özünün yeni həyatına qovuşacaq. Məcburi köçkünlər Xocavənd, Xankəndi bölgələrinə, tarixi ata-baba ocaqlarına qayıdacaqlar. Böyük qayıdış Qarabağ bölgəsinə yeni güc qatacaq, uğur gətirəcək.**

Türkiyə, Pakistan, İtaliya şirkətləri artıq işlərinə başlamışlar. Yaxın onillikdə bütün bunları xalqımız daha yaxından hiss edəcəkdir. Su, qaz, enerji sahəsində görülən işlər və onların bütövlükdə istismara verilməsinin şahidi olacağıq. Azərbaycanın qərb bölgəsi üçün Naxçıvan istiqamətində dəmir yolunun bərpası və komunikasiya xətlərinin düzəldilməsi işlərinə start verilmişdir.

### *Minalardan təmizlənmiş torpaqlarımızın*

***böyük hissəsində əkinə yararlı sahələrdə əkin başlamışdır. Demək olar ki, bütün sahələrdə quruculuq işləri davam etməkdədir.***

Ermənistan bu gün siyasi böhrann içindədir. Son günlər yeni-yeni açıqlamalarının şahidi oluruq. Xüsusən meydan hərakatı gündə bir hekayət nəql edir, insanlar qorxu içindədirlər, onlara vədlər verilir. Revanşist mövqedə olan siyasi afiristlər az qala yarış həddini keçsin. Müxalifətin lideri Vazgen Manukyan(çoxlu vəzifələrdə işləmiş) verdiyi vədlərlə az qalır 1-ci Pyoturu xatırlatsın. Görəsən nə baş vermişdir. "Gözümün qabağında Vətənimi bölürlər, torpaqlarımızı alırlar" kimi yalan, iyrənc ifadələr meydan hərəkatını bir az da qızışdırır. Taleyini bir tükdən asılı edən kasıb və savadsız təbəqə az qala Bazgen Manukyana "Ermənistanın xilaskarı" kimi baxsınlar. Görəsən hansı dövlətdir bu gün Ermənistan dövlətinin torpaqlarını bölən? (Əyər doğrudanda bu dövlətin torpaqları varsa). Hələ bu günədək -Ermənistan-Azərbaycan müharibəsi hansı dövlətin ərazisində gedir?-sualını verən nə bir jurnalist gördüm nə də bir dövlət xadimi gördüm. Məntiqə fikir verin, bircə müharibənin ilk günlərində Dünya erməni lobbisinin az qala partladığı vaxtlarda, ABŞ-ın, Fransanın, haqsızlığa səssiz qalan İranın və Yunanıstanın cilov gəmirdiyi vaxtlarda Rusiya Federasiyasının prezidenti Vladimir Putin tarixdə ilk dəfə olaraq (bəlkə də öz maraqları baxımından) müharibənin Aərbaycan torpağında getdiyini dilə gətirdi. Putinin bu jestindən sonra hürən köpəklər azca da olsa sakitləşdilər..

### *1920-ci ildə*

***Ermənistanda Sovet Hakimiyyəti qurulub. Burada hakimiyət qurulan gündən ermənilər Azərbaycan xalqının izini belə silməyə başladılar. Kimlərin əliylə?-rusun, farsın, fransızın, yunanın əliylə. Neçə-neçə diplomatlarımızı, xarici ölkələrdə məhv etdilər. Türkiyə türklərindən çox Azərbaycan türklərinə soyqırım yaşatdılar. Bu soyqırımda yəhudilər, ləzgilər, udinlər və daha başqa xırda millətləri Azərbaycanda qırdılar. Bütün bunlar dünyanın gözü qarşısında baş verdi. Tarixdən bilirik Nargin adasında türklərə verilən işgəncələr ölçüyə gəlməzdir. Leninin və onun inandığı, etibar etdiyi silahdaşı daşnak Stepan Şamuyanın bu və digər şəkildə məhv etdiyi Azərbaycan türklərinin sayını elə bir hesablama palatası tanımıran hesablasın. Az imiş kimi Bütöv Azərbaycanı iki yerə böldülər yarımızı Lenin özünə götürdü yarımızı torpaqlarımızla birlikdə İran farslarına verdi ki, səsləri çıxmasın.***

Azərbaycan türkləri hansı faciəni yaşamayıblar?! İnsanın istismarı Rusiyaya Lenini, Stalini gətirdi, onlarda başladılar kiçik millətləri əzməyə. Hələ daha əvvəl 1804-Sisyanov, 1827-ci il Rusiyadan Paskeeviç İrəvana daxil oldu, nələr etmədi. 1828-ci il Türkmənçay müqaviləsi Azərbaycan torpaqlarına ermənilərin gətirilməsi baş verdi, nələr-nələr...Bir az əvvəlki illərə qayıtsaq 1605-66-cı illər İrəvanda Sərdar məscidi, Rəcəb paşa məscidi, Pənah xan Bakinskinin evi, İrəvan qalası, hansını deyək görən qalıbmı.

### *1948-53 cü illər...*

Kremlin əliylə Azərbaycanlılar dədə-baba torpaqlarından köçürüldü. Bu bölgədə əhalinin 75 %-ni təşkil edən Azəri türklərinin günahı nə idi yarısı Sibirə, yarısı Qazaxstana yük vaqonlarında sürgün edildi, yarısı Nargin adasında güllələndilər. Bütün bunlar erməni-rus hiyləsinin qurbanları idilər. Bu gün də belə məkrli planlar davam edir. Müxtəlif yozumlar, reallıqlar gözlənilir. Bu gün nə üçün Azərbaycan xalqı 10 milyondur, səbəb nədir? Axı biz o qədər olmalı deyildik. Bu rus millətçiliyinin gizlin cızdığı planların bir qoludur. Bu gün Bütöv Azərbaycanın əhalisi 100 milyon olmalıydı. Məlumdur 100 illərdi farslar soydaşlarımızı doğma tarixi ata-baba ocaqlarında qırır, asır, Rusiya da başqa şəkildə burada Azərbaycanda təkrar edir. Məncə günahımız Allahın sevimlisi müsəlman türkü olmağımızdır. Müstəqilliyimizi milyonlarla şəhid verməklə qazandıq. Bu yolda xalqımız odlar ayaqladı. Dəhşətli böhranlar, acılar yaşadıq. Uzun illərin təcrübəsindən sonra bu qənaətdəyəm ki, ermənini erməni edən də rusdur, erməniləri "Ermənistan dövləti" edəndə yenə də rusdur.

### *Ermənilər bilsinlər ki,*

***onların törətdiyi "Xocalı" soyqırımını biz dünya türkləri olaraq heç vaxt unutmayacağıq. Dünyanın çox dövlətləri artıq bu soyqırımı tanıyıblar. Erməniləri insan və uşaq qatili kimi tanıyırlar. İnsanlığı, haqqı, ədaləti ayaqları altına atan bu terrorist millət nə etdiklərini heç vaxt unutmamalıdır, cavabını haçansa alacağlırını da unutmamalıdırlar. Dünya xalqları arasında özlərinə yalan tarixlər yaan, arxivlər, danışıq və ünsiyyət dili düzəldən bu etnos türklə qonşu olmaq haqqını çoxtan itiriblər.***

Ermənilərin işqal etdikləri rayonları, dağıtdıqları yaşayış məntəqələrini görəndə dünyanın Xirosiması yada düşür. Bu terrorçu dövlət deyək yoxsa xalq deyək neçə-neçə məsçidlərimizi donuzxanaya çevirmişlər. 80-dən yuxarı tarixi abidələrimizi, dişlə-dırnaqla tikdiyimiz evlərimizi, komunikasiya xətlərini, su anbarlarını, elektrik xətlərini, meşələri, qəbristanlıqları məhv etmişlər, qalan tikinti materiallarını ermənistana daşımışlar. Dünyanın heç bir yerində belə toplum mövcud deyil...

Yeri düşmüşkən bildirmək istəyirəm ki, bizim siyasi komandalarımız bir qədər fəal olarsa daha yaxşı olar. Xarici ölkələrdə olan səfirlərimiz də fəallaşar. Bəzi siyasi kosalar xalqın başının altına yasdıq qoymaqda davam edirlər.

Mən ən yeni xəbərləri nə üçün Ermənistan mediyasından almalıyam. Məyər bizim qurumlarımızın bir sözü yoxdur gündəmdə olsun. Çox passiflik hiss olunur. Fransada fəaliyyət göstərən səfirliyimiz bir qədər fəal olarsa yaxşı olar, bilirik orada erməni lobbisi güclüdür. Senatda erməni əsilli adamlar var. Buna baxmayaraq yenə də müəyyən vacib işlər görmək mümkündür. Artıq son vaxtlar dünyanın güc mərkəzləri bizi və kimliyimizi qəbul edirlər. Bu günlərdə Xocalı soyqırımı ərəfəsində Müzəffər Ali Baş Komandanımız Preident İlham Əliyevin dünya ölkələrinin jurnalistləri ilə dörd dildə əhatəli söhbəti və onların suallarını cavablandırması dünyanın beyin mərkəzlərinin bizim haqq işimizə olan münasibətlərini xeyli dəyişmişdir. Bu, bu gün bizim üçün çox vacib elementdir.

***Biz bütün günü ekranda-efirdə, mediada erməni xəbərlərini müzakirə edirik. Əyər biz qalib xalqıqsa, sözsüz ki, belədir Qarabağda zəfər çalmışıqsa, deməli erməni qulaqlarını dörd açıb bizi dinləməyə məcbur olmalıdır, özü də qorxu içində. Gəlin görək belədirmi?! Bəzi qurumlar bir qurum olaraq bütün yükü mətbuat katibinin üstünə atıblar. Onun nə deməsini gözləyirik. Lakin bu o demək deyildir ki, hər sözü, hər işi ancaq mətbuat katibi deməlidir. Bəs bizim köməyimiz, xalq olaraq nə etməliyik? Elə başa düşürəm ki, hər bir azərbaycanlı öz yerində vicdanla işləməli, necə deyərlər bir "prezident" olmalıdır, bu o deməkdir ki, üzərinə düşəm vəzifə borcunu, misiyasını vicdanla, əqidəylə təmənnasız yerinə yetirməlidir. Tarixdən bildiyimizə görə müharibədən çıxmış xalq firavanlıq baxımından bir qədər kasıb olur. Onun üçün belə ağır, çətin günlərimizdə biz xalqımıza sevgimizlə, insanlığımızla başqa xalqlardan seçilməliyik. Azərbaycanın sabahı bizim gələcəyimizdir. Gələcəyimizin parlaq olması bütün xalqımızın əlindədir. Hər bir Azərbaycan vətəndaşı ayaqda olmalı, dövlətinin qurucusuna çevrilməlidir, dağıdıcısına yox. Aliqarxlar bu gün korrubsiyaya "yox" deməlidirlər.***

Bu gün ermənilər əyər bizimlə qonşu kimi yaşamaq istəyirlərsə, etdiklərini az da olsa bizə unutdurmaq istəyirlərsə revanşizmdən, maskinalizmdən uzaq olmalıdırlar. Onların bir xalq kimi məhvi çatıb, bunu onların özləri yaradıblar.

### *Bu terrorçu xalq,*

dövlət bilməlidirlər ki, məhvə doğru gedirlər. Böyük Azərbaycan xalqı tərəfindən əllərinə düşən son şansı əllərindən buraxmamalıdırlar.

**Ermənistan əhalisinin sayına və ərazisinə görə dünyada 138-ci yerdədir. Bu elə də böyük, üzağardan rəqəm deyil. Bunlar bilməlidirlər ki, onlar tarixi Azərbaycan torpağında dövlət qurmuşlar. Bir gün o torpaqları, İrəvan başda olmaqla Zəngəzuru boşaltmalıdırlar, başqa yol yoxdur. İstər hakimiyyətə kim gəlirsə gəlsin. Ermənistanın meydan hərəkatı əlləri Xocalı soyqırımına bulaşmış Robert Koçaryanı gündəmə gətiriblər. O, prezidentliyi dövründə Qarabağdan oğurladığı pulları meydanlara töküb təzədən hakimiyyətə gəlmək istəyir. Bəli, Rusiyanın köməyi ilə gələ bilər. Deyir ki, mənə 3 milyard pul lazımdı yenidən ermənistan orsusunu dirçəldim və Baş nazir Nikol Paşinyanın verdiyi torpaqları mən geri alım. Nə desən dəlidən, axmaqdan çıxar. Biz buna hazır olmalıyıq. Hələ heç kim bilmir ki, bu yaxınlarda əsirlikdən buraxdığımız Livan vətəndaşı olan, ermənilər tərəfdən bizə qarşı vuruşan snayperçi Maral Nazaryan kimilər illər keçəcək yenə də Qarabağ bölgəsinə qayıtmayacaq, bunu heç kəs bilmir. Qondarma "Arçax" adlandırılan guşədə Rusiya sülhməramlıları adı altında gəlmiş ordu təcili və böyük tikinti işləri görürlər. Bütün vəchlə Rusiya burada öz mövqelərini saxlamağa çalışacaqlar. Buna biz qətiyyən yol verə bilmərik və buna hazır olmalıyıq. O fikrə qayıtmaq istəyirəm k, Robert Koçaryan da belə sərsəm bəyanatları, ucuz dividentləri qorxusundan verir, etdiyi günahları yumaq üçün. Bizə o məlumdur bütövlükdə ermənilər uduzduqlarını tam şəkildə qəbul etməsələr də bu gün qorxu içindədirlər, axı qonşuya haçana qədər ümüd etmək olar. Haqqı olmayan elə belə də olmalıdır, qorxmalıdırlar. Buna onların haqqı var.**

# METRO İŞLƏMİRSƏ...

## Virus sürətlə yayılacaq

**Bu gün ölkəmizdə koronavirusa yoluxanların sayı yenə artmaqdadı. Təbii ki, bu hər bir insanı, hər bir adamı daha çox narahat etməyə başlayıb. Ən azından ona görə ki, insanlar fikirləşirdi ki, yaxın zamanda bu xəstəlikdən tamamilə xilas ola biləcəyik. Çünki fevralın əvvəllərində sutkada virusa yoluxanların sayı aşağı enərək 85-100-ə, çatmışdı. Amma bir çox iş yerlərinin yenidən açılması və məhdudiyyətlərin aradan götürülməsi birmənalı olaraq insanlarda arxayınlıq yaratdı də düşündülər ki, tay bundan sonra müəyyən qaydalara əməl eləmək də olar.**





Biz bu cür düşündük, pandemiyanın yayılması isə yenidən sürətlə davam edir. Ona görə deyirəm ki, artıq bəzi günlərdə virusa yoluxanların sayı 700-ü keçir və bir çox halda 650 ilə 600 arasında dayanır. Bu isə o deməkdir ki, məhdudiyyətlər aradan götürüləndən sonra əhali arasında mövcud qaydalar pozulmaqda davam edir. Əgər mövcud qaydalar pozulmasaydı, virusa yoluxanların sayı ya sabit qalar, ya da artmazdı. Amma hamımız görürük ki, yoluxma halları günbəgün artmaqda davam eləyir.

### *Əhali isə çox narahatdı*

***Ən çox narahatlıq avtobuslarda yaranan sıxlıqla bağlıdır. Operativ Qərargah fikirləşmədi ki, məhdudiyyətlər aradan götürüləndən və iş yerləri açılandan sonra avtobuslarda sıxlıq daha da artacaq. Əgər əvvəllər, yəni məhdudiyyətlər olan vaxtı bir avtobusa 50-60 adam minirdisə, indi isə 100-dən çox sərnişin olur. Hələ onu demirik ki, müxtəlif metrostansiyaların yanında dayanan və sərnişin yığan M-1, M-2 "BakBus"a məxsus iritutumlu avtobuslarda bir çox halda 150-200 nəfər sərnişin olur. Bu isə bir toyun adamı deməkdi.***

Toy eləməyə icazə vermirlər, ancaq "BakBus"un bir avtobusunda 200 nəfərdən çox sərnişin gedir, bu vəziyyətə Operativ Qərargah göz yumur. Belə bir şəraitdə hansı ara məsafəsindən danışmaq olar? Ayaq üstə dayanmış sərnişinlər az qala bir-birinin "ağzının içinə" girir. Və bu gün Bakı şəhərində avtobuslardan, özü də bu cür sıxlıq olan avtobuslardan 2 milyondan çox sərnişin istifadə eləyir. Həmin sərnişinlərdən birinin koronavirusa yoluxması kifayətdir ki, digərləri də bu xəstəliyə düçar olsun.

Hansı ki, həkimlər və Operativ Qərargah, eləcə də TƏBİB bildirir ki, virusdan qorunmağın 3 qızıl şərti var: ara məsafəsi saxlamaq, tibbi maskalardan istifadə etmək və sanitar-gigiyenik qaydalara diqqət yetirmək! Belə sıxlıq olan yerdə siz deyin, hansı qızıl şərtdən söhbət gedə bilər? Bu barədə, daha doğrusu, pandemiyanın avtobuslarda sıxlıq yaranan zaman yayılması ilə bağlı dəfələrlə biz "SOS" siqnalı vermişik.

### *Həmin avtobuslardakı sərnişinlər*

dönə-dönə Operativ Qərargahdan xahiş edir və hətta yalvarırlar ki, metronu açın! Operativ Qərargah isə düz 5 aydı xalqın bu səsini, bu harayını, bu çağırışını ya eşitmir, ya da eşitmək istəmir. Çox yox, cəmi bir dəfə o Operativ Qərargahın üzvlərinin biri "BakBus"un sıxlıq olan avtobusunda əyləşib mənzil başına getsə, onda görər ki, hər gün sərnişinlər hansı əziyyətlə üzləşirlər.

Metronun "Əhmədli" stansiyasından "20 Yanvar"a qədər "BakBus"un avtobusunda ayaqüstə min bir əziyyət yaşaya-yaşaya sərnişin 2 saat yarıma mənzilbaşına çatır. Ancaq metro işləsə bu məsafəyə yarım saat vaxt gedər. Insanlar bu gün vaxtlarının çox böyük hissəsini avtobusda itirir. Məsələn, bayaq dediyimiz məsafəyə getmək və geri qayıtmaq üçün 5 saat vaxt sərf eləməlisən. Amma 5 saata Bakıdan çıxıb Gürcüstan sərhəddinə çatmaq olur. Bax, indi görün avtobusdakı sərnişinlər hansı hisslər keçirirlər.

***Biz avtobuslardakı sıxlıqdan danışırıq, ancaq restoranlarda, kafelərdə və digər istirahət yerlərində olan sıxlıqlardan danışmaq istəmirik. Elə xəstəliyin ən çox yayılma mənbəyi də restoranlar, kafelər və çayxanalardı. Bu gün Bakıda hansı restorana və kafeyə getsən, orda yer tapmaq mümkün deyil. Məsələn, 8 martda bir çox tanışlarım deyirdi ki, restorana getmək istədik, heç birində yer yox idi. Dedilər ki, əvvəlcədən yerlər bron edilib. Və indi də belədi. Adını çəkdiyimiz istirahət yerlərində, Bakı şəhərində bir sıxlıq var ki, sözlə ifadə olunmur. Özü də bir çox restoran və kafelər əlaqədar qurumlara arxayın olaraq 40-50 nəfərlik stolar açır, ad günü keçirir və şadlıq eləyirlər.***

Hansı ki, mövcud qanunla 40-50 nəfərin bir yerdə toplaşması qadağan edilib. Elə bu qadağanı da bir çox arxası olan restoran və kafelər pozurlar. Məsələn, Yeni Günəşlidə "Şam işığı" restoranı var, orda hər axşam bu cür ad günləri, şadlıqlar keçirilir. Biz heç də kiminsə çörəyinə bais olmaq istəmirik. Belə baxanda 200-250 nəfər avtobuslardakı sərnişinlərdən 40-50 nəfər toplaşdığı restoranlardakı tədbirlər daha təhlükəsizdir. Üstəlik də restoranlarda bir ara məsafəsi də var. Amma avtobuslarda birmənalı olaraq heç bir ara məsafəsi gözlənilmir.

Bir faktı da qeyd edək ki, artıq bəzi sərnişinlər də avtobuslarda tibbi maskanı ya burnunun üstündən ağzına salır, ya da bir az da aşağı, ağzını açıb çənəsinə tərəf dartır. Bütün bu hallar virusun yayılması üçün çox böyük təhlükə yaradır. Üstəlik də hələ bilmək olmur ki, o avtobusda neçə sərnişin virusa yoluxub.

### *Xəstə sərnişinlər çox olduqca*

virusun da yayılma ehtimalı daha sürətlidir. Düzdür, ölkəmizdə virusa qarşı peyvəndləmə tədbirləri görülür. Artıq yarım milyona yaxın insana vaksin vurulub və bir çox adamlar isə peyvənd olunmaq istəmirlər. Onu da qeyd edək ki, əgər vəziyyət bu cür davam edərsə, virusa yoluxanların sayı daha da artacaq və ölkədə sərt karantin rejimi yenidən tətbiq ediləcək.



**Amma bizim fikrimizcə, virusa yoluxmanın sürətini aşağı salmaq bir o qədər də çətin deyil. Ilk növbədə avtobuslardakı sıxlıq aradan qaldırılmalı, restoran və kafelərdə karantin qaydalarına əməl edilməli və tezliklə Operativ Qərargah hərəkətə gəlib metropolitenin fəaliyyətinə icazə verməlidir. 2 milyon sərnişini və ondan da artıq insanı ay hörmətli Operativ Qərargah, heç vaxt avtobuslarda daşımaq mümkün deyil. Daşımaq olar ey, bax onda camaat gərək bir-birinin belinə minsin və ağzının içinə girsin. Nə vaxta qədər ki, bu sıxlıq aradan qaldırlımır, metro işləmir, o vaxta qədər də koronavirus yüksək sürətlə yayılacaq.**

**Faiq QİSMƏTOĞLU**

# Əslində insan nələrə qadirdir?

**İnsanın imkanları həqiqətən sərhədsizdir. Təəssüf ki, çox az insan onların orqanizmlərinin hansı xüsusiyyətlərə malik olub və nə qədər böyük imkanlara sahib olduğunu haqqda düşünür. Hər birimizdə böyük güc və inanılmaz qabiliyyətlər yatır. Təxəyyülü sarsıdan İnsanlar haqqında maraqlı faktlar hər yerdə tapmaq olar. Sübut olunub ki, insanların əksəriyyəti imkanlarının cəmi 10% -ini istifadə edirlər.**

Elə isə əsl insan nələrə qadirdir?

**1.** Siz nə vaxtsa öz qidalanmağınız barədə düşünmüsüz? Fransa sakini Mişel Lotitonu belə boş şeylər heç vaxt narahat etməyib. O hələ 9 yaşında ikən bütünlüklə televizor yemişdir, eləcə də 16 yaşından etibarən xalqı rezin, şüşə və metal yeyərək əyləndirib, pul qazanmağa başlamışdır. Fransız özünü nümunə göstərərək sübut etdi ki, insan imkanlarının sərhədləri yoxdur. Lotito iki il ərzində "Sessna-150" kiçik təyyarəsini yediyinə görə Ginnesin rekordlar kitabına düşüb.

**2.** Siz nə qədər yatmadan yuxusuz qala bilərsiniz? Məsələn, vyetnamlı kəndli Txay Nqok 42 ildir ki yatmır. O, bunu keçirdiyi hərarətin nəticəsi olduğunu izah edir. Başqa bir nümünə də var. Macar əsgəri olan Paul Kern Birinci dünya müharibəsi zamanı başından yaralanıb. Güllə beyin payının bir hissəsini məhv edib. Buna görə də macar ağrı, yorğunluq və stresss hiss etməyib eləcə də ömrünün qalan 40 il ərzində bir dəfə də olsun yatmamışdır. Onun sözlərinə görə, Paul özünü əla hiss edirdi.

**3.** İnsan bacarıqları həqiqətən təəccübləndirir. Belə ki, 1997-ci ildə iki yüngülcə sərxoş yerli belarus sakinləri qoruğunun ərazisinə soxuldular. Bu hərəkətin motivi bir qədər qeyri-adi idi - onlar sadəcə olaraq zubru tumarlamaq istəyirdilər. Çox təəssüf ki, heyvan kişilərin diqqətini qiymətləndirmədi və uğursuz pərəstişkarlarını qəzəblə təqib etməyə başladı. Bir neçə saniyədən sonra hər iki belaruslu hündürlüyü 3 metr olan çəpərə dırmaşmışdılar.

**4.** 1978-ci ilin adi bir günündə Volqoqrad vilayətinin sakini Nikolay Lipatov gəzintiyə çıxmaq qərarına gəlir. Qəfildən yağış yağır və göy guruldamağa başlayır. İldırımlardan biri insana düşür. Nikolay Aleksandroviç möcüzə nəticəsində sağ qalır və hətta özündə qabiliyyətlər aşkarlayır - deməli o daha əvvəl öyrənmədiyi 3 avropa dilində sərbəst danışmağa başlayıb

**5.** Hindistanda da insan haqqında maraqlı faktlar aşkarlamaq olar. Belə ki, 1950-ci ildə yoq Babaşri Cirnari müvəqqəti ölüm nümayiş etdirir O, mismarlı kameraya uzanır, bundan sonra onun üzərinə maye sement qarışığı tökürlər. 24 saat sonra yoqu kameradan alırlar, sonra isə Babaşri asan masajdan sonra özünə gəlir.



**6.** İngiltərəli Daniel Tammet asanlıqla mürəkkəb riyazi hesablamalar aparır, mükəmməl dərəcədə 11 dil bilir, hansı ki onlardan 3-ün bir həftə ərzində öyrənib. Həmçinin o, pi rəqəmində vergüldən sonra gələn 20-dən 500 qədər olan rəqəmləri əzbər bilir. Danieldə Savanta sindromu var. Savanta sindromu və ya Savantizm qüsurlu insanların bir və ya bir neçə sahələrdə biliklərin inkişafında dahi bacarıqlar göstərmələridir. Daniel beynində çox böyük ədədlərdən ibarət yüzdən çox rəqəmlərlə əməliyyat apara bilər.

**7.** Həddindən artıq qeyri-adi Ben Andervudun bacarıqlarını hesab etmək olar. Ben ağır xəstəliyi üzündən görmə qabiliyyətini tamamilə itirib. Nəticədə onda eşitmə qabiliyyəti kəskinləşib. Bunun sayəsində Andervud məkanlara çox yaxşı bələd olur və adi insanın eşitmək iqtidarında olmadığı, hətta ən sakit səsləri belə eşidir.

**8.** Maraqlı bacarıqları olan insanların siyahısını Codi Ostroytu yad edərək davam edək, çünki onun görmə qabiliyyəti o qədər kəskindirki hətta xeyli aralıqda yerləşən əşyaların cüzi detallarını seçmək iqtidarındadır. Belə ki, Con adi insanların yalnız elektron mikroskop vasitəsi ilə görə bildikləri ağacın yarpağının daxili quruluşunu heç bir vasitəsiz yaxşı görür.

**9.** İnsanların hədsiz bacarıqlarını, Nikola Teslanın kumiri olan, Piter Terrendə nümayiş etdirməyə hazırdır. Piter elektriklə olan təcrübələr etməyi sevir və öz həyatində təsir bağışlayan şoular təşkil edir. Bir dəfə Piter Rodenovskinin "Mütəfəkkir"pozasını alıb və özünü zərvərəqə bürüyərək P özünündən 500 kilovoltluq gərginlik cərəyanı buraxmışdır.

**Dilimizə uyöunlaşdıran:
Eminquey**



Məzahir ƏHMƏDZADƏ

# İçəribazar: sanki şəhər içində bir şəhər kimi...

**Qaxa gələn qonaqlar, yerli və xarici turistlər adətən İlisuya, Ağçaya, Qaşqaçaya, istirahət mərkəzlərinə, məşhur bulaqlara, eyni zamanda dağlıq ərazilərdəki tarixi abidələrə daha çox maraq göstərirlər. Təbii ki, rayonun son illərdəki sürətli inkişafı, müasirləşməsi də görənlərin diqqətini çəkir və Qaxın təbiətlə bütünləşən urbanik yüksəlişini də bütün maraqlar baxımından təsdiqləyir.**

Bunlar öz yerində. Artıq çoxlarına məlum olan Qax fenomeni hamıya sevinc bəxş etməkdədir. Və mən o gün televiziyada Qaxda istirahət edən xarici ölkə turistlərinin bütün gözəlliklər və modernləşmə ilə yanaşı, şəhərin mərkəzindəki İçəribazar tarixi abidəsi haqqında heyranlıqla söhbət açmalarına heç də təəccüblənmədim.



Bu abidə təkcə tarixi-etnoqrafik bilgili adamlar üçün deyil, bütün zövqlü turist və tamaşaçı üçün gerçəkdən unikal bir hadisədir. Gerçəkdən İçəribazar şəhər içində qədim bir şəhər havası yaşayan doğma, xatirələrlə zəngin əsl tariximizdir.

### Respublikanın hər yerində

***olduğu kimi, yüksək dağ silsilələri ilə əhatələnmiş şimal-qərb bölgəsində də Dövlət Proqramının icrası uğurla davam etməkdədir. İndi Qax rayonunun da sürətli inkişafı diqqət mərkəzindədir. Bu rayon indi təkcə təbiət gözəllikləri ilə deyil, şəhərdəki və kəndlərdəki yenilikləri, müasirləşməsi və nəticə etibarilə əhalinin yaşayış tərzinin yaxşılaşması ilə də fərqlənir, diqqət çəkir.***

Bir zamanlar təbiət gözəlliklərinin fonunda o qədər də cəlbedici görünməyən şəhər variasiyaları, indi özünün modern üslubu ilə görənləri bu dağlar, bu meşələr, bu çeşmələr qədər valeh edir. Ciddi məsələdir və ciddi irəliləyişdir. Xüsusilə Qax şəhərinin müasirləşməsi, urbanik inkişafı ilə yanaşı, şəhər görüntüsündə və şəhər təsərrüfatında qədim memarlıq ənənələrinin qorunması və bərpası çox dəyərli yanaşmadır. Bütün bunlar da son dövrlərin diqqət və qayğısının nəticəsidir.

Bu yerlərin ən sıx turizm marşrutlarından biri olması görülən işlərin əhəmiyyətini və məsuliyyətini ikiqat çoxaldır. Modernləşmə yeni xüsusiyyətlər üzərində qurulduğundan inkişafın perspektivlərinə də işıq salır, insanların ruh yüksəkliyini artırır.

### Bu gün Qax rayonuna

***turist kimi qədəm basan istər Azərbaycan, istərsə də xarici ölkə vətəndaşı olsun, təbii ki, ilk öncə buradakı təbiət gözəlliklərinin sehrinə, cazibəsinə düşəcəkdir. Sonra şəhər səliqəsi və gözəlliyi, "Yaşıl park", "Ağçay", "Uludağ"... və başqa istirahət mərkəzlərinin özünəməxsusluğu, otellərin dünya standartları səviyyəsində xidmət mədəniyyəti... Bütün bunlar turizmin zövq və komfort tərəfləridir. Ancaq elə məsələlər də var ki, onlar Qaxın əbədi simvollarıdır. İlisu sultanlığının yadigarları və qalıqları, daha keçmişlərə aid olan və hətta islamdan öncəki tariximizlə bağlı abidələr, 2000 ilə yaxın yaşları olan qədim məzarlıqlar... İndi qonaqlar mövcud olan bütün gördükləri ilə yanaşı, Vətən tarixi anlamında belə istiqamətli bilgilərə də həvəslə maraq göstərirlər.***

Mən bu mözuya əvvəllər də üz tutmuşam. İndi bir az geniş şəkildə söhbət açım. Son illərin ən uğurlu və diqqətçəkən yeniliklərindən biri də Qax şəhərinin mərkəzindəki tarixi yer - abidə olan İçəribazarın restavrasiyası, yenidən qurularaq sakinlərin və qonaqların istifadəsinə verilməsidir. Bütün bu məsələlərin həll edilməsində bir sıra tanınmış dövlət adamları da rayon rəhbərliyinə yaxından köməklik göstərmişlər.

Əbəs yerə deyil ki, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin özü Qaxa səfərləri zamanı buradakı quruculuq işlərindən həmişə razı qalmış, İçəribazar və digər tarixi yer və abidələrin timsalında qədim memarlıq ənənələrinin qorunub yaşadılmasını vacib bilmişdir.

Bir zamanlar çarizmə qarşı aparılan azadlıq mübarizəsi Qaxın da ərazisində öz nişanələrini saxlamışdır. Çar dağlıların hücumlarının qarşısının alınması üçün mühafizə qalaları, sədlər, istehkamlar tikməli olmuşdu. Buna baxmayaraq, yenə də dağlıların mübarizəsini, inamını qıra bilməmişdi. İlisu sultanlığının ərazisində Əhməd xan tərəfindən tikilən qalaçalar indi də qalmaqdadır. Karvan yollarının qovşağı sayılan Qaxda Alazan çayı vadisində çox qədimlərdən yurd-yuva yerləri olan Minbərək, Torpaqqala, V-VI əsrlərdə ticarət şəhərcikləri olan Ləkit və Qum Qaxın ərazisində qərblə şərqin, cənubla şimalın karvan yollarının keçidi, həm də bu yerlərdə qalıb ixrac və idxal ticarəti ilə məşğul olan tacirlərin fəaliyyət meydanı olmuşdur.



Minbərəkdən sonra karvan yollarının Şəki-Şirvan, Şamaxı və Dərbənd tərəflərə genişlənməsi ilə bağlı Qaxda ikinci bir dayanacaq - karvanların gecələmə, qalıb istirahət etmə şəhərciyi Minbir saray Kürmük çayının sol sahilində tacirlərin həm də bazar yerinə çevrilmişdi. Lakin bir dəfə dəli Kürmük çox güclü daşqın törədərək Minbir sarayı yerlə yeksan etmişdir. Bundan sonra qalan ərazidə zaman-zaman Qaxmuğal əhalisinin yaşayıb çalışdığı küçə və meydanlar formalaşmışdır.

### Çar Rusiyası

***XIX əsrin ikinci yarsında İlisu sultanlığını da tam işğal etdikdən sonra strateji baxımdan əlverişli hesab edilən indiki Qax şəhərinin mərkəzindəki məşhur İçəribazar rus əsgərlərindən ibarət qarnizonun yerləşmə məntəqəsinə çevrilmişdir. Daş divar hasarlarla əhatələnmiş qalaya hər hansı hücum baş verərsə mazqallar vasitəsilə qarşı tərəfə atəş açmaq mümkün olmuşdur. Çay daşından əhəng məhlulu ilə tikilmiş qalanın içərisində yaşayış evləri, müxtəlif sənətkar emalatxanaları, dükanlar və böyük bazar olmuşdur. Elə buna görə də yerli əhali qalanın əhatə etdiyi daxili ərazini İçəribazar adlandırmışdır. Bugünkü Qax şəhəri məhz bu qalanın daxilindən genişlənərək müasir görkəmini almışdır.***

Qaxla Şəkinin arasında meşə massivində Hacı Murad qətlə yetirilərkən Vorontsovun böyük ümüd bəslədiyi İçəribazar qarnizonunun əsas hərbiçiləri rus və ermənilərdən ibarət idi. Çar məmurları Hacı Muradı mühasirəyə alıb çoxlu itkilər versə də, igid dağlını diri tuta bilməyib öldürmüşdülər. İçəribazarda ruslar və ermənilərin əhaliyə divan tutması bir yana, Dağıstandan sığınacaq üçün buraya qaçıb gələn günahsız adamların bir çoxu çar Nikolayın göstərişi ilə edam olunmuşdu. O vaxtlar Qaxın yerli əhalisi qonşu dağlı xalqları ilə də dostluq əlaqələri saxlayırdı. Bu əlaqələr Gürcüstana, Dağıstana, Çeçenistana qədər geniş bir ərazini əhatə edirdi. İnsanları bu yerlərə cəlb edən, bu yerlərə bağlayan qaxlıların - Azərbaycan türklərinin qeyri adi səmimiliyi idi.

### İçəribazar qala kompleksinin ətrafında

yaşayış evləri o qədər də çox olmurdu. Orada elə adamlar məskunlaşırdılar ki, ziyalılığı ilə seçilirdilər. Peterburqda, Odessada təhsil almış vətənpərvər insanlara çar məmurları birbaşa müdaxilə edə bilmirdilər. Azərbaycan xalq maarifinin və elminin görkəmli nümayəndələri, Qabulovlar və digər mətanətli insanlar qaladakı irticaçılardan qorxub çəkinmirdilər. Çoxları üçün maraqlı olan başqa bir faktı da diqqətə çatdırmaq istəyirəm. Məlumdur ki, Azərbaycanın iki görkəmli mütəfəkkiri - dahi Üzeyir bəy Hacıbəyovla Müslüm Maqomayev həm dost, həm də sonradan qohum olublar. Müslüm (Əbdülmüslüm) Maqomayev, yəni Azərbaycanın məşhur müğənnisi, SSRİ xalq atrisri Müslüm Maqomayevin babası 1885-ci ildə Qroznıda anadan olsa da onun atası kökəncə indiki Qax rayonundandır. Müslüm Maqomayev 1899-1904-cü illərdə Qori müəllimlər seminariyasında oxumuşdur. Burada təhsil alarkən o, musiqiyə də böyük həvəs göstərmiş, ilk əsərlərini yazmış, Üzeyir bəy Hacıbəyovla tanış olmuşdur. Maqomayevin musiqi yaradıcılığından, bəstəkarlığından söhbət açsam, yeni bir şey demiş, əlavə etmiş olmaram.

Bütün bunlar hamıya məludur. Ancaq yəqin ki, Müslüm Maqomayevin 1902-ci ildə Qoriyə gedərkən yolüstü Qaxda dayanıb İçəribazarda dəmirçi işləyən atası Məhəmməd kişi ilə görüşməsi tamam başqa bir əhvalda maraq doğurmalıdır. Axı o, İçəribazara dostu Üzeyir bəylə gəlmişdi...

***...İçəribazar çar Rusiyasının süqutundan sonra irticaçılardan təmizləndi. İçəribazar XIX əsrin sonları XX əsrin əvvəllərindən yaşayış yeri, mədəni əyləncələr, xalq yaradıcılığının və milli bayramların keçirilməsi yeri kimi də öz funksiyasını davam etdirdi.***

Ancaq son illərin bərpa işləri İçəribazarı daha cazibədar görkəmə gətirərək görənləri heyran etməkdədir. Buradakı küçə və meydanlar, tikililər, digər qurğular, kiçik konsert və tamaşalar üçün qurulmuş amfiteatr ilkin görkəmləri saxlanılmaqla böyük zövq və istəklə yenidən qurulmuş və genişləndirilmişdir. Rayon rəhbərliyi İçəribazarın daha mükəmməl formalaşması, tariximizin bir parçasını yaşatması üçün bütün vasitələrdən istifadə edir. Özü də hər dəfə sakinlərlə, ziyalılarla məsləhətləşmə, gözəl təşəbbüslərə hörmətlə yanaşma şəraitində. Bu səbəbdəndir ki, Qaxda təməli qoyulan və davam etdirilən hər hansı bir iş və tədbir uğurla başa çatdırılır. Bütün bu məsələlər barədə söhbət düşən zaman Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev fikrini konkret məqamlar üzərindən bildirir. M.Şəkiliyev deyir:



**- Sizə də məlumdur ki, son illər bütün Azərbaycanda olduğu kimi Qax rayonunda da çox işlər görülmüş, Dövlət Proqramlarının icrası ardıcıllıqla həyata keçirilmiş və bu proses uğurla davam etməkdədir. Dövlətimizin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəsna qayğı və diqqəti Qaxın sürətli inkişafına, bu rayonun sosial-iqtisadi yüksəlişinə böyük təkan vermişdir. Eyni zamanda Qax şəhərinin keçmiş ənənələr təməlində özünəməxsusluğunun qorunub daha üstün görkəm alması üçün ciddi yanaşmalar öz nəticəsini indiki məqamda fakt olaraq bir daha təsdiqləyir. Görkəmi dəyişən, modernləşən şəhər, həm də öz qədimlik aurasını həyata keçirilən mühüm tədbirlər vasitəsi ilə qoruyub saxlayır. Xoş bir nostalji ilə...**

---

# "Şəhid olmağım gəldi"

**Vətən torpağı o qədər müqəddəsdir ki, oğullar ondan ötrü düşünmədən canlarından keçirlər. Dünyanın ən əziz neməti olan canlarını fəda edən oğullar bu torpağın əbədi, bölünməz olduğunu bir daha sübut edir, adlarını Vətən torpağına böyük hərflərlə yazırlar. Vətənə olan sonsuz sevgilərini, qəlblərinin dərinliyində gəzdirdikləri Vətən məhəbbətini oğullar ölümləri ilə təsdiqləyirlər:**

*Ayaq basdığım*
*Vətən torpağı*
*Ürəyimin başından keçir...*

Vətən sevgisini ürəyinin başında gəzdirən qeyrətli, vətənpərvər oğullardan biri də Ömər Rəşad oğlu Rəhimli idi. 1 fevral 2002-ci ildə Ağcabədi rayonunun Hindarx qəsəbəsində ziyalı ailəsində dünyaya göz açan Ömər hələ uşaqlıqda vətənpərvər bir oğul kimi torpaqlarımızın yarasının sağalacağına inanır, böyüyəndə onu göz bəbəyi kimi qoruyacağını söyləyirdi.

### Birinci Qarabağ savaşında

***Hindarx oğulları qarı düşmənlə üzüzə vuruşmuş, gənclərin bir neçəsi Vətən yolunda şəhid olmuşlar. Onların şərəfli döyüş yollarını davam etdirən Ömər də bu qəsəbənin övladlarının necə vətənpərvər, torpaqsevər olduqlarını öz igidliyi ilə bir daha nümayiş etdirdi. Müharibə başlananda o, həqiqi əsgəri xidmətdə idi. Sumqayıtda N saylı hərbi hissədə xidmət edirdi. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən Müharibəsinə Ömər oktyabrın 6-da qatılır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Laçın, Xocavənd və Daşaltıda gedən qızğın döyüşlərin fəal iştirakçısı idi. Düşməndən azad etdikləri hər bir torpağa Ağcabədi, Hindarx, Ömər Rəhimli sözlərini öz silahı ilə yaza-yaza gedən Ömər Qubadlını azad etdikdən sonra evlərinə zəng edib, buranın dağlarının, meşələrinin necə əsrarəngiz gözəlliyə malik olduğunu vurğulayıb. Deyib ki, ölərəm, bu torpağı düşmənə verməərəm. Heyif deyil, belə torpağa düşmən ayağı dəysin. Bu torpaqlara baxanda adamın ruhu dincəlir. Cənnətdir buralar. Nə yaxşı ki, bu gözəl torpaqları qaytara bildik. İndi adam rahat ölə bilər...***

Ömər yaralanandan sonra əmisi ilə telefon söhbətində bildirir ki, xoşbəxtəm, mənim də qanım bu torpağa töküldü. Gərgin döyüşdə ağır yaralanan topçu Öməri xilas etmək mümkün olmadı. Çox qan itirdiyindən o, dünyasını dəyişdi. Vətən yolunda o, ən uca zirvəyə yüksəldi, şəhid oldu.



Ömər əsgərliyə gedəndə doğma məktəbə gəlir. Sevimli tarix müəllimi Könül Cəfərovanın sinfinin qapısını döyür. Müəllim onu görüb çox sevinir və gəlişinin səbəbini soruşanda Ömər gülümsəyir:

- "Müəllim, əsgərliyə gedirəm. Gəldim ki, görüşək. Bəlkə bir də..." Sinfin uşaqları bu zaman hamısı bir nəfər kimi ayağa qalxır və ucadan deyirlər:

Şəhidlər ölməz, Vətən bölünməz!

Ömər bu sözlərdən duyğulanır, "Nə yaxşı sözlərdir, lap şəhid olmağım gəldi", - deyə söyləyir.

Könül müəllim sevimli şagirdi haqqında ağızdolusu danışdı: "Ömər çox tərbiyəli, ağıllı, zarafatcıl oğlan idi. Dərs zamanı həmişə Vətən ruhlu, torpaq sevgili suallar verirdi. Bir dəfə soruşdu ki, müəllim, yəni bir gün torpaqlarımız mütləq azad olacaqdır? Mən də, "Hə oğlum, mütləq. Azərbaycan oğulları torpaqlarımızı düşməndən azad edəcəklər" dedim. Sakitləşdi, "Mən də elə düşünürəm" dedi.

Bir dəfə də Mübariz İbrahimovla bağlı sual verdi. Onun haqqında geniş danışmağımı xahiş etdi. Mən də bir tarix müəllimi kimi, Mübarizin canlı örnəyini təsvir etdim. Dedim ki, Mübariz əsl vətənpərvər, qəhrəmanlıq nümunəsi idi. İndi onun apardığı mübarizəni siz, bu günki gənclər davam etdirməlisiniz. Mənimlə razılaşdı, hər bir Azərbaycan oğlunun Mübariz olmağının vaxtı yetişdiyini söylədi".

Atası Rəşad müəllim: "Ömər fəxr etməli həyat yolu keçdi. Mən qürur duyuram ki, oğlum az ömrü ilə xeyli iş gördü. Bir Azərbaycan əsgəri kimi bir çox torpaqlarımızın işğaldan azad olunmasında igidlik və rəşadət göstərdi. Vətənə öz oğul borcunu ləyaqətlə yerinə yetirdi. Bu torpaq uğrunda qan axıtdı, canını fəda etdi.

Ömər nənəsi, babası ilə çox yaxın, mehriban idi. Həmişə onlarla dərdləşər, məsləhətləşərdi. Onun ölümünə tab gətirə bilməyən nənəsi, o şəhid olandan 5 gün sonra həyatdan köçdü. Sevimli nəvəsinə yaxın olmaq üçün dünyasını dəyişdi.

### Babası Akif kişi

Ömər haqqında danışanda fərəhdən dili ağzına sığmır: "Çox baməzə, zarafatcıl idi Ömər. Öz nikbinliyi, həyat eşqi ilə çoxlarından seçilirdi. Nənəsini, babasını çox sevirdi. Bizə dərin tellərlə bağlı idi. Atasına demədiklərini mənə söyləyirdi, çox şeylərdən danışır, məsləhətləşirdik. Yazıq arvad onun ölüm xəbərindən sonra yaşaya bilmədi... Ömər müharibədə də zarafatından qalmırdı: "Baba, yaxşı təzə texnikalar ələ keçirmişik, yaxın da deyilsən ki, sənə bir-iki traktor, maşın yollayım..." Hələ də onun ölümünə inana bilmirəm. Elə gözləyirəm ki, nə vaxtsa qapını açıb gülə-gülə içəri girəcəkdir. Bircə təsəllim var ki, Ömər canını müqəddəs torpaqlarımız, Qarabağımız uğrunda fəda etdi".

**... Ömər cəmi on səkkiz ilə yaxın ömür sürdü. Canını Vətən yolunda əsirgəmədən şəhidlik zirvəsinə yüksəldi. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunan şəhidimiz öz adını, soyadını təkcə azad etdikləri torpağa yox, həm də bizlərin yaddaşına böyük hərflərlə yazdı. Elə yazdı ki, bu yazı heç zaman pozulmayacaq, Ömərin adı qəlbimizdə əbədi yaşayacaqdır.**

**Adil MİSİRLİ**

---

# VƏTƏN SİZƏ OĞUL DEDİ



***MAXE Həsənov Etibar Ələddin***

***MAXE Həsənov Etibar Ələddin oğlu 07.02.1991-ci ildə Gədəbəy rayonu, Qarıkənd kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimiz ailəli idi. Fuad və Səma adlı övladları Vətənə əmanət qalıb.***

***Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



***Məmişov Tural Tələt oğlu 05.04.1992-ci ildə Gədəbəy rayonu, Maarif kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimiz ailəli idi. Ayşə və Ömər adlı övladları Vətənə əmanətdir.***

***Qubadlı uğrunda döyüşlərdə boynundan yaralansada, döyüşə davam edib***



***Quliyev Vəli Kamal oğlu 1997-ci ildə Culfa rayon Qazançı kəndində anadan olub. 2003-cü ildə həmin kəndin Elsəvər Eldar oğlu adına tam orta məktəbin 1-ci sinfinə gedib. Ailə vəziyyəti ilə əlaqədar 2009-cu ildən təhsilini Naxcıvan şəhər Azər Tağıyev adına 17 nömrəli tam orta məktəbdə davam etdirib.***

***2011-ci ildə Heydər Əliyev adına hərbi litseyin 1-ci kursuna qəbul olub, 2014-cü ildə oranı bitirib, həmin il Azərbaycan Ali Hərbi Akedemyasının 1-ci kursuna qəbul olub. 2018-ci ildə Akademiyani bitirərərək N saylı hərbi hissədə xidmətə başlayıb.***

***2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ Savaşında ön cəbhədə olub. Füzuli, Hadrut (Üçoğlan), Cəbrayıl, Zəngilan və Qubadlının azad olunmasında iştirak edib. Qubadlı uğrunda döyüşlərdə boynundan yaralansada, döyüşə davam edib. 2020-ci il oktyabr ayının 22-də Qubadlı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyevin 15.12.2020 ci il tarixli sərəncamına əsasən leytenant Vəli Quliyev ölümündən sonra "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə" və Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Culfa rayon Qazançı kənd qəbirstanlığında dəfn olunub.***

***Paşayev Firdovsi***



***Paşayev Firdovsi Afiq oğlu 14.11.2000-ci ildə Gədəbəy rayonu, Poladlı kəndində anadan olub.***

***O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək qəhrəmancasına Şəhid olub.***

***Murovdağ silsiləsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



***Həmzəyev Mərhəmət Rizvan oğlu 26 fevral 1997-ci ildə Şahbuz rayon Keçili kəndində anadan olub. 2003-cü ildə Keçili kənd tam orta məktəbin birinci sinfinə gedib. 2012-ci ildən Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi liseydə təhsilini davam etdirib. 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2019-cu ildə məzunu olub.***

***İlk olaraq Şəmkir rayonuna təyinat alıb, leytenant kimi iş fəaliyyətinə başlayıb.***

***İkinci Qarabağ savaşında iştirak edən Mərhəmət Murovdağ silsiləsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şahbuz rayonu Keçili kəndində dəfn olunub.***

***Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



***Məhərrəmov Niyaməddin İsrayıl oğlu 05.01.1993-cü ildə Şəmkir rayonunda anadan olub.***

***Sentyabrın 21 könüllü olaraq hərbi təlimlərə qatılan Niyaməddin Vətən müharibəsində igidlik və mərdlik göstərərək 29.09.2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Niyaməddin Məhərrəmov Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə "Vətən uğrunda" Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.***

# ŞEİRİMİZDƏ ƏLİ KƏRİM HƏQİQƏTLƏRİ



VAQİF YUSİFLİ

**60-cı illərin sonlarıydı. ADU-nun filologiya fakültəsində oxuyurdum. Kənddən gəldiyim üçün şəhər həyatına çox çətin uyuşurdum. Yataqxana - Universitet - Axundov kitabxanası və yenə Yataqxana. Şəhərdə bir kimsəm yox. Anjaq Axundov kitabxanası mənə yataqxanadan daha doğma idi. Bəzən elə olurdu ki, günümün çox hissəsi oxu zalında keçirdi. Qarşımda müxtəlif seminarlara hazırlaşmaq üçün lazım olan dərsliklər. Yorulanda isə şer kitabları sifariş verirdim. Hələlik Azərbaycan şairlərini oxuyurdum. Günlərin birində o kitabxananın daimi "üzvü" olan Vaqif Cəbrayılzadə ilə tanış oldum, dostlaşmağa başladıq. O, elə onda da çox sərbəst və daxilən azad bir insan idi. Söhbətlərimizin birində Əli Kərimin adını çəkdi, onun ən müasir şair olduğunu söylədi və mənim - filologiya fakültəsi tələbəsinin Əli Kərimdən xəbərsiz olduğuna hədsiz dərəcədə təəccübləndi.**

Və mən Əli Kərimi oxumağa başladım. Oxumağa nəyi vardı? "Həmişə səfərdə" və "Qızıl qanad" adında iki şer kitabı. Onunla ədəbiyyata bir gələnlərin kitabları Əlikindən çox idi, onların bəziləri hətta "populyarlıq dövrünə" qədəm basmışdı.

Əli Kərimi oxudum və sevdim. O, mənim poeziyaya ilk sevgim oldu. Elə həmin illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin ötən illərki (1963-1964) səhifələrində Əli Kərimlə, onun poeziyası ilə bağlı qərəzli fikirlərlə qarşılaşdım.

Hiss edirdim ki, bu cür fikirlər anlaşılmazlıqdan yox, anlamamaqdan doğur. Nə yaxşı ki, ustad şair Rəsul Rza var idi və Rəsul Rza bütün ciddiyyəti ilə Əli Kərimin yenilikçi poeziyasını müdafiə edirdi. Əli Kərim yazırdı ki:

*Otuzdan çox yaşamışam..*
*… Sevgi toranında.*
*Mühazirə salonunda.*
*Sevgimlə bir-birimizə deyəcəyimiz*
*İki söz arasında.*
*Xəstə olarkən*
*Həkimin mənə etdiyi çarəsində.*
*Bəzən baş tutmayan şerimin*
*Dağılmış divarlarının xarabasında,*
*Bəzən söz yarışında*
*Bəzən ölüm sözünün polyar qışında.*

Bax, belə bir poetik düşüncə tərzi 60-cı illərin poeziyasında novatorluq hadisəsi idi, amma Əli Kərim tipli şairləri "anlamamaq dərdi" var idi.

Əli Kərimin novatorluğu nədə idi? Mən bu məqamda böyük tənqidçi Belinskinin bir fikrinə üz tutmaq istəyirəm. O yazırdı ki, söz öz-özlüyündə boş səsdir: o ancaq fikir ifadə etmək üçündür. Fikir isə öz-özlüyündə ağıllı və gözəl bir şerin kölgəsindən başqa bir şey deyildir. O, gerçəkliyin yalnız ideal mahiyyəti olmaq etibariylə əhəmiyyətlidir.

Praktiki tətbiq ölçüsünə gəlməyən hər bir şey yalan və boşdur. Vaqtf adamların dilində köhnə həqiqətlər belə sanki ilk dəfə söylənilir, müəllimlik iddiası edən adamların dilində isə bəzən yeni fikirlər təsir buraxmadan itib-batır, sanki bunlar adi söylənmiş şeylərmiş".

***Bax, Əli Kərim bu mənada 60-cı illərdə Azərbaycan sözü üçün xüsusi poetik mühit yaratdı, onların çoxunu çeynənməkdən, sürtülməkdən xilas etdi, bədii təfəkkürü yeniləşdirdi.***

Mən bəzi sensasiya axtaran müəlliflərə demək istəyirəm ki, bəli, Əli Kərim kimi çox istedadlı bir şair də sizin "qəzəbinizə" tuş gələ bilər, çünki o da Leninə şer həsr etmişdir, sovet dövrü həqiqətlərini əks etdirən bəzi şerlərinin də adını çəkə bilərəm. Ancaq bu "fraqmental" hadisənin Əli Kərim poeziyasına heç bir dəxli yoxdur. O, bəzi mövzunun, "həyat həqiqətinin" yox, sözün aşiqi idi. Onun istənilən şerində Əli Kərim kəşfini, söz ustalığını görmək üçün gərək özün də daxilən Əli Kərim havasına köklənəsən.

*Üfüqlərə başını*
*Qoyub uzanmış dəniz...*
*Mən,*
*Baxıb göyərtədən*
*Görürəm ki,*
*Tullayır biri yemiş qıçası,*
*Biri kağız parçası,*
*O biri, nə bilim, nə-*
*Dənimzin saf qəlbinə.*
*Dəniz coşub-daşmayır;*
*Suları çaxnaşmayır.*
*Sakit əzəmətiylə,*
*Gücüylə,*
*Qüdrətiylə*
*Ona atılanları*
*Saflığına qərq edir.*
*Fikir verib görürəm:*
*Dəniz yenə təmizdir.*
*Dəniz yenə dənizdir.*

Əli Kərim poeziyası da beləcə saf və duru idi. Ona atılan daşları, tənə və yersiz iradları təmizliyində qərq edirdi.

***Əli Kərim poeziyası mənim üçün həmişə təzədir, çünki nə öz zamanının, nə də sonrakı illərin tozu o poeziyanın heç bir sətrinə qona bilmədi. Bax, indi bu sətirləri yazanda, Əli Kərim haqqında, ona sevgim barədə düşüncələrimi qələmə alanda həmin həqiqəti xatırladım - zaman çox şairi sındırdı, amma Əli Kərimə toxuna bilmədi.***

Ustad Rəsul Rza Əli Kərim haqqında yazmışdı: "Şair var ki, yüksəliş pillələrini dayana-dayana, tövşüyə-tövşüyə, yazdığını təkrarlaya-təkrarlaya qalxır. Şair də var ki, öz-özü ilə yarışdadır, hər əsərində bir pillə qalxır, özünü, özgəni təkrarlamaq faciəsindən uzaq olur. Əli Kərim ikincilərdəndi.

O deyə bildiklərinin, demək istədiklərinin az, çox az bir hissəsini dedi. Bu az hissə də şair Əlinin çox böyük poetik imkanlarını aydın göstərir."

Bu gün, şerimizin bütün guşələrinə - qoşmalı, qəzəlli, sərbəstli, postmodern ruhlu növbənöv formalarına müraciət edəndə məhz Əli Kərimin yeri açıq-aydın görünür. Hansı bir gözəl şerdəsə nəsə çatışmır, yaxud başqa bir şerdə fikir təzədir, amma poetik ifadəsi zəifdir - bax, o məqamda fikirləşirsən ki, Əli Kərim bunu yaxşı bacarardı. Gözəl dilçi,mərhum professor Tofiq Hacıyev yazırdı ki, Əli Kərimin işlədiyi mövzuların bir qismi yalnız onun özünə məxsusdur. Yəni demək istəyir ki, o, hansı mövzuda yazırdısa, o mövzunu "özününkü" edə bilirdi. Məsələn, Əli Kərim böyük sevginin - bir ünvanlı, yalnız bir ürəyə məxsus sevginin bənzərsiz hisslər tablosunu yaradır.

*Gecə də, gündüz də fikrimdə sənsən,*
*Mən kimin fikrində yaşayım, söylə?*
*De, hansı bir ürək qəbul eləyər*
*Məni sən ünvanlı, dərdlə, gileylə.*
*Hansı bir ürəyə yan alsam əgər,*
*Dərdimin adından biləcək yadam.*

Yaxud tənhalığa təşnəliyi, tənhalığın boşluq olmadığını Əli Kərim şerdə belə mənalandırırdı:

*Tənhalıq boşluq deyil-*
*Səni gözləyən varsa;*
*Doludur ümid günəşiylə,*
*Həsrət ayparasıyla…*
*Kövrək qəmin alatoranıyla…*
*Doludur Braziliya stadionu kimi*
*Şıltaq nazla,*
*Dəli ümidsizliklə,*
*Canna d.Ark kimi qəhrəman ümidlə.*
*Gözləyənin yoxdursa,-*
*Tənhalığın da yoxdur.*
*Harda dünya başlayır,*
*Hamısını sən*
*Bilmirsən.*
*Harda dünyayla birləşirsən,*



*Onu da bilmirsən.*
*Yaşayırsınız -*
*Bir-birinə bir ümid şüası*
*Verməyən*
*Pis qonşular kimi.*
*Tənhalıq istəyirəm -*
*Böyük, dərin,*
*Dolu tənhalıq.*

Mən dahi Füzulini çox sevirəm və onun poeziyasının əsiriyəm. Neçə illərdir cəhd edirəm ki, onun poeziyasına olan bu böyük sevgimi bir yazıda ifadə edim, bacarmıram. Füzulinin sözüdür: "Heyrət ey büt, surətin gördükdə lal eylər məni". Eyni hissi mən Əli Kərim poeziyası qarşısında da keçirirəm. Bunlar -Ə.Kərim haqqında bu sözlərim dediklərimdi, deyə bilmədiklərim deyil. Əli Kərim poeziyası da Füzuli poeziyası kimi möcüzələrlə doludur. Füzuli onun ən böyük ustadıdır və dahi şairə həsr etdiyi şerində yazır ki: "Dünya səni qocaltdı, yaşıdın olsun deyə".

*Həsrətin araya atdı dağ, dərə,*
*Sönən işıq oldun, batan səs oldun.*
*Qayıt, mənim gülüm, qayıt bu yerə,*
*Ey mənim istəyim, nə gəlməz oldun!*
*Qayıt, yerinə qoy Ayı, Günəşi-*
*Yenə olduğu tək görüm həyatı.*
*Qayıt, gözüm nuru, könlüm atəşi,*
*Qayıt, sahmana sakl bu kainatı!*

Şəxsən mən Əli Kərimin "Qayıt" şeirini bütün zamanlar üçün ən gözəl sevgi şeirlərindən biri hesab edirəm. İnsan istəyini, sevgisinin müqəddəsliyini bu qədər poetik, bu qədər ustalıqla vermək..bu, poetik hünər deyilmi?

Babəkin qəhrəmanlığı haqqında onlarla, yüzlərlə şeirlər yazılıb, amma bu babəknamələrin içində Əli Kərimin o möhtəşəm şeiri ayrıca yer tutur:

*Qolu sındırılmış Babək,*
*Yurdu yandırılmış Babək,*
*Qan rəngli bir arabada,*
*Şərq boyda bir xarabada,*
*Söyülə-söyülə,*
*Döyülə-döyülə,*
*Hamıya görk olsun deyə,*
*Kənd-kənd gəzdirilən Babək.*
*Ölübən-dirilən Babək.*
*Qollarını görməyəndə*
*Azca rahat olan Babək.*
*Bir qırmızı yuxu içrə,*
*Uzaqlara dalan Babək.*
*Deyən Babək:-Aman dostlar,*
*Hücum çəkin qoşun-qoşun.*
*Orda mənsiz qılınj çalan*
*Qollarımla bir vuruşun.*

Əli Kərim poeziyasından onlarla belə misallar gətirə bilərəm.

Əli Kərimdən söz açan tədqiqatçıların əksəriyyəti onu assosiativ poetik təfəkkürə malik şair kimi səciyyələndirirlər. Nə deməkdir şerdə assosiativ məna? Fikrimizcə, assosiasiya şerdə müxtəlif əşya və predmet arasında sanki gözə görünməyən əlaqə və bağlılıqları aşkara çıxarmaq üçün bir yoldur. Burada bədii təsvir vasitələri - təşbehlər, istiarələr, metaforalar qəfil və gözlənilməz mahiyyəti ilə seçilir. Obrazlılıq, sözün poetik incəliyi assosiativ şerdə ən önəmli xüsusiyyətdir. Əli Kərimin 60-cı illərdə yazdığı əksər şerlərdə assosiativ təfəkkür daha güclüdür. Uzun-uzadı misallar gətirməkdən sərf-nəzər edib yalnız Nəsimiyə həsr olunmuş "Şəhidliyin zirvəsi" şeri üzərində dayanaq.

*Altı yüz ildir idrak*
*Çırpınır pələng kimi,*
*Nərə çəkir,*
*Ağlayır.*
*Tapa bilmir ki,*
*Bilmir -*
*O bir sirr-xudanı.*

Sirr-xuda Tanrıdır, gözəgörünməz İlahidir. Bunu həm adi mənada, həm də daha geniş mənada anladıqda insan idrakının sirr-xudaya, "yoxdan bu cahanı var edən pərvərdigara" (Xətai) - onun möcüzələrinə, sirlərinə gücü yetmədiyi, izah edə bilmədiyi anlamı yaradır.

Yəni Allah insanı xəlq edir, yalnız hər insanın özü də bir sirdir, möcüzədir. Yaradılan onu Yaradana Sirr-Xudaya oxşadır. Necə ola bilər ki:

*Təpədən dırnağadək*
*Soyalar bir adamı;*
*Necə ola dinməsin,*
*Böyük əqidəsindən*
*Bir misralıq enməsin.*
*Gözündən bir nöqtə yaş*
*Sinəsinə düşməsin.*
*Qaşları çatılmasın*
*Bir xırda vergül qədər.*
*Diri-diri soyulsun,*
*Əqidədən keçməsin.*
*Altı yüz ildir bəşər*
*Ağrılardan inildər.*
*Altı yüz ildir bəşər*
*Düşünər.*
*Çatmaz yenə*
*Məşəqqətli ölümün*
*Nəsimi zirvəsinə.*

Əli Kərim şerinin obrazlılığını təmin edən ümdə cəhətlərdən biri də tədqtqatçıların qeyd etdiyi kimi bənzərsiz, təkrarsız, poetik obrazlar yaratmasıdır. Burada şairin az sözlərlə konkret bir lövhə yaratması, şerdə rəssamlıq işini uğurla başa çatdırmasıdır.

*Külək qarı püskürür,*
*Yerdən göyə yağır qar.*
*Qışın öpüşü kimi,*
*Şaxta yapışır üzə.*

Bu mənzərəni təsəvvür edin. Əsl rəssam fırçasından çıxıb elə bil.

Əli Kərim şeri Əli Kərimin ölümündən sonra özünə yaşarılıq, Azərbaycan poeziyasının mənzərəsində daha artıq görünmək və seçilmək imkanı əldə etdi. Əsl şerin, poetik nümunənin yaşarılığını, Füzuli demişkən, "tabü-təravətini" saxlayan, hifz edən də məhz onun müasirliyidir. Yəni şer hansı dövrdə yazıldığından asılı olmayaraq bütün dövrlərdə öz bədii-estetik mükəmməlliyini qoruyub saxlamalıdır.

Zaman, dövr, mühit dəyişə bilər, cəmiyyətdə yeni mənəvi, sosial münasibətlər törənə bilər, amma şer öz varlığını qorumalıdır.

**Elə bilirəm ki, Əli Kərim bu günlərdə yaşasaydı, şerimizin axarı, istiqaməti çox-çox yad səmtlərə, küləklərə tuş gəlməzdi. Şer bu qədər ujuzlaşmaz, hər yetənin əlində xırdalanmazdı. Heyf…**

# Azərbaycan dilində yaza bilməyən "Prust" - Şamxal Həsənov

**Düzü, bu romanı ilk dəfə sadəcə vərəqləmişdim. Yaltaqlığa azca meyilli yazar dostum ağız dolusu "sən bu romanı mütləq oxumalısan, bu roman Azərbaycan ədəbiyyatında böyük bir hadisədir, Azərbaycan ədəbiyyatına Prust gəlib"- dedi. Dedim, orda duuur, işte burda duracaksın! Zarafatsız, adam gərək sözün sərhədini bilsin.**

Mən müəllif Şamxal Həsənovu ilk dəfə kitabın redaktoru Şərif Ağayarın təqdimatında tanıdım. "Azərbaycanın Prustu" yazısında. Düzü, mən Şərifə, onun ədəbi zövqünə, ümumiyyətlə, ədəbiyyat məsələlərində ona çox inanıram. Amma bu dəfə inanmadım, bütün bunları özlüyümdə şirin bir yalan hesab etdim. Həm də, Şərif Ağayar nə etməlidir? Deməlidir ki, mən bu romanın redaktoruyam, amma bir köpüklük roman deyil?

***Əl-Qərəz. Sonra başqa bir güvəndiyim müəllif, Mirmehdi Ağaoğlu "boğazdan yuxarı" yazı yazdı. Düzü, çox təəssüfləndim. Bu qədər istedadlı, mətni bilən bir yazıçı həqiqtənmi bu romanın alınmadığını, sayıqlamadan başqa bir şey olmadığını görməyib? Bir də Qismət Rütəmov, şair Qismətimiz. Ona düzü bilmirəm təəssüflənim, ya yox. Tam səmimi deyəcəm, Qismətin yazısını başa düşmədim. Yəni, cümlə-cümlə oxuyanda nə yazdığını bilirəm, şükür, oxuma və yazmam yerindədir, amma bütövlükdə mahiyyətin nə olduğunu tuta bilmədim. Mənə bir az "nə şiş yansın nə kabab"-ı xatırlatsa da, bütün hallarda bəlkə intellektim çatmadı deyə də düşünürəm. Ona görə bu haqqda heç nə deməyib, keçirəm öz yazıma.***

***P.S.*** Hə, onu da deyim ki, yaxşı olar müəllif bir az dözümlü olsun, tənqid qəbul etsin. Çünki mən ilk dəfə romanı vərəqləyib fikirlərimi feysbukda bölüşəndə, "təkərə" düşüb məni blok elədi, sonra da qulağıma çatdı ki, müəllif onu təriflməyənləri sevmir. İlk romanındı, alınmayıb, bəziləri tərif, bəziləri də tənqid yazır. Necə oldu ki, bəyənməyənlərin hamısı səni başa düşməyən oldu? Özünə gəl, Prust!

Müəllifdən roman oxumazdan əvvəl bir-iki yazı da oxumuşdum. Orta səviyyəli bir yazılar idi. Onsuz da, ciddi bir yazıçı olmadığını qəbullanmışdım, böyük gözləntim yox idi, romanı oxuyanda da əmin oldum.

Hörmətli müllifin romanında da, digər yazılarında da aydın şəkildə gözə çarpır ki, Azərbaycan dilində yaza, cümlə qura bilmir. Bunu romanın strukturuna görə demirəm, ümumən. Azərbaycan dilini yaxşı bilənlər özü də oxuyanda görəcək ki, mən nə demək istəyirəm. Və bir azərbaycanlı yazıçı Azərbaycan dilində yaza bilmirsə, əslində, söhbət də, bu tənqidi yazı da burda bitməlidir. Amma mən dirənən adamam, sonadək gedəcəm, sübut edəcəm!

Deyirəm və iddia edirəm! Kitabın istənilən səhifəsini açın, siz də görün. Yenə deyirəm, təsadüfü bir səhifəni, ürəyiniz istəyən. Bir cümlədə normal bir şey yoxdu, amma di gəl, müəllif özünü inandırıb ki, o, Prustdur, Prust sayağı yaza bilir. Ey gələcəkdə bəlkə də yaxşı yazıçı ola biləcək müəllif, bil və agah ol ki, bu Prust sayağı bir roman deyil, bu, sadəcə və sadəcə olaraq sayıqlamadır. Sa-yıq-la-ma!

Ümumiyyətlə, nəinki Azərbaycan dilində yaza bilməmək, müllif heç Azərbaycan dilində düşünə də bilmir. And olsun Prusta ki, bu, yazıçı faciəsidir.

400 səhifə kitab yazasan, o da belə. Ağır dərddir.

Kitabın ilk cümləsində guya öz aləmində göndərmə edən müəllif, bunu da düzəməlli bacarmayıb. Demək olar ki, Prustun romanının birəbir eyni cümləsini köçürüb.

"Uzun müddət həftəsonları doyunca yata bilmədim"

Prusta rəhmət, sənə isə Allahdan rahatlıq diləyirəm. Sən gecələr yat ay Qurban. Görürsən ki, gecələr yazanda alınmır, nə məcburdu?!

Romanın ümumi müzmununu deyim, oxumayanlar az da olsa, məlumatlı olsunlar. Yataq xəstəsi olan ata - Ramiz obrazı gözlərini palatanın divarına zilləyib keçmişini xatırlayır və bu gününü analiz edir, düşünür. Yazıçı olmaq istəyən introvert oğlu İdris də guya Prust kimi öz dünyasına, kitablarına falan qapılıb, mənəvi əzablar çəkir. Oğlunun bu problemlərində də Səma obrazı(Ana) atasını günahkar bilir və klassik bir şəkildə oğlunu "həyata" qaytarmaq istəyir. Elə yenə də klassik şəkildə. Rəfiqəsini və onun oğlu ilə həmyaşıd olan qızını evlərinə qonaq çağırır.






Yəni, bu qədər sadə.

***Roman fəsillərdən ibarətdir. Oxuyanda görəcəksiniz, biinci fəsil İdris, ikinci fəsil Səma, üçüncü fəsil isə Ramizin "səs"-ləridir. Bütün bunların hamısında hər şey eynidir. Eyni təhkiyə, eyni üslub, eyni forma. Hər şey eyni. Mən hər üç obrazın ruhi xəstə kimi qələmə verildiyini müşahidə elədim. Amma bilmirəm müəllif də buna eyham vurmaq istəyib, yoxsa yox.***

Nəysə. Ümid edirəm, kiçik bir aydınlatmanı verə bildim. Keçək bir-iki balaca iradlarıma.

"Həyəcanlı deyildim. Gərgin idim. Evlənib, hamının yaşadığı, sıxıcı, monoton ailə həyatını yaşamaq istəmirdim. Günləri fərqlənməyən, rəngsiz, ailəiçi cansıxıcı söhbətlərlə dolu bir həyatı yaşamaq qorxusu düşmüşdü canıma. Bunları mənasız və boğucu görürdüm. Keyləşən sol qolunu sağ əlimlə qaldırıb yerini dəyişirəm. Həyatda nələrlə xoşbəxt olduğuna, yaxud olacağuna əmin olmamış evlənmək istəməyən burulğanlı-böhranlı bir gəncin dadına yetib, hər şeyi məntiqlə və ən qorxunc detallarıyla təşkil etdilər"- romandan bi hissədir. Yəqin ki, siz də mənim kimi can çəkdiniz oxuyanda.

"Əvvəlki həyatımda aydın, parlaq gələcəyim var idi. Hər şey məni səssizcə izləyib qoruyan-səsli də izləmək olurmu? "Hər şey ağlımda səssizliklə baş verir- ümumiyyətlə, belə cümlə olmur. Hər şey ağlımda səssizliklə baş verir nədir? Guya indi rabitəsiz nitq alındırmaq istəyib də müəllif. Yazıq Prust. Gör, sənə özünü necə oxşadırlar. Allah sənin qəbir qonşularına rəhmət eləsin.

"Beynim çox tənbəlləşib, sanki səslərlə də vidalaşmaq istəyir artıq- bu, cümlədir? Cümlənin xəbəri belə olur?" And olsun, yenə deyirəm, Prust sayağı yazmaq üçün cümlələrin yerini dəyişməyə ehtiyac yoxdur, əlaqəsiz sözlər yazmaqla olmur bu iş.

***"Oğlumun həssaslığını birlikdə yaşadığıma başladığımız vaxtdan bəri özündən gizləmək istədiyi bir sıra guya gerçəkliklərinə məhəl qoymamağa çalışmışam- yenə can çəkdiniz, hə? Özündən gizləmək istədiyi bir sıra guya gerçəkliklərinə- siz Prust, bu nədir?"***

"Görəsən, qəssab necə müəyyənləşdirir, necə əmindir hansı yönə tutmaq lazımdır!- bu cümlədirsə, mən də yaza bilmirəm."

Ümumiyyətlə, qeyd etdiyim kimi, hər səhifə bu cür cümlələrlə doludur. Təkrar edirəm, hər səhifə. Əgər bu boyda kitabda kimsə bir səhifə göstərib desə ki, burda səhv yoxdur, əlimə qələm alsam, məndən pis adam yoxdur. Belə kitab olmur, belə roman olmur, əziz müəllif. Bunu da tərifləmək düzgün deyil. Azərbaycanlı müəllif ilk olaraq dilinə hörmət etməli, ana dilində yaza bilməlidir. Nə olursa, olsun.

Müəllif konkret olaraq öz aləmində gah cümlə uzadaraq Pamukluk edib, amma əslində mahiyyəti aydın olmayan söz yığını yaradıb, gah da öz aləmində şüur axını fikirləşib, amma burda da sayıqlamadan başqa bir şey alınmayıb. Bütün bunların hamısının qəsdən edilməsi də, romanın tam başqa bir süniləşdirib. On görə də tam qətiyyətlə sonda bir daha bu romanın alınmadığını deyə bilərik. Müəllifin yeni romanını həvəslə gözləyir, belə olduğu halda da ilk tənqidi yazacağıma söz verirəm. Yaxşı yazsa da, tərifləyəcəm, söz haqqı!

**Bu kiçik yazı isə təhlil və tənqid hesab olunmasın heç. Ümumi fikirlərim deyək, getsin. Amma müəllifin " Səs və ya Qırmızı" romanı da roman hesab olunmamaq şərti ilə. O, necə romandırsa, buda elə tənqiddir!**

**Orxan Saffari**

## İntiqam Yaşarın Təbrizdə kitabı çap olundu




**Təbriz şəhərində fəaliyyət göstərən "Nəbati" nəşriyyatında Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşarın yeni kitabı çap olunub.**

**Ədalət qəzeti xəbər verir ki, müxtəlif illərdə qələmə alınmış şeirlərdən ibarət kitabı fars əlifbasına təbrizli gənc şair Əli Nurvəş köçürüb. Kitabın dizayneri isə Kiyumərs Nizamiyandır.**

**"Bütün xatirələr sənə qalacaq" adlanan kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Kitab artıq Təbrizin müxtəlif kitab evlərində satışa çıxarılıb.**

**Emin Piri**

## Azərbaycanda vaksin hazırlanması üçün potensial var

*Bu gün bir çox ölkələr COVİD-19 virusuna qarşı vaksin hazırlayır. COVİD-19 pandemiyası başladıqdan sonra qonşu Türkiyənin 7-8 fərqli laboratoriyasında koronavirusa qarşı müxtəlif növ vaksinlərin hazırlanması üçün işlər aparılır. Məncə, bir ölkə olaraq, Azərbaycanda da bununla bağlı potensial mövcuddur. Ölkəmizin iqtisadi potensialı, inkişaf səviyyəsi imkan verir ki, bu sahənin inkişafı mümkün olsun.*

*Bunu Trend-ə akademik Vəli Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, professor Adil Allahverdiyev deyib.*

*Onun sözlərinə görə, vaksinin hazırlanması işinin Azərbaycanda gercəkləşməsinin mümkünlüyünə inanır:*

*"Dünyada hər bir ölkə özünün milli vaksinini yaratmağa çalışır. Bunun əsas səbəbləri dəyişən dünyada ölkələrin bir-birinin hazırladığı vaksinə şübhə ilə yanaşması, hər bir ölkənin özünün vaksin istehsal edib ona inanmaq istəyi, öz ölkəsinin əhalisini vaksinlə daha yaxşı təmin etməyə çalışmasıdır. Digər tərəfdən, vaksin yaratmağın məqsədi başqa ölkədən asılığı aradan qaldırmaqdır. Bu, ölkəyə həm də iqtisadi baxımdan gəlir gətirmək deməkdir. Digər səbəb də odur ki, bazarda satış üçün vaksin olmaya da bilər. Ola bilər ki, ölkələrdə ikinci, üçüncü vaksinasiya da aparılsın. Belə bir durumda vaksinlərə ehtiyac daha da arta bilər".*

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 30 (2211) 16 mart 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# BU VƏTƏNİN TORPAĞINA, SUYUNA...

**”...Qaxın çox gözəl təbiəti, gözəl iqlimi vardır. Əlbəttə ki, bunlar turizmin inkişafı üçün böyük potensialdır. Bütün bu şimal-qərb zonasının turizm imkanları çox genişdir. Əminəm ki, gələcəkdə bu istiqamətdə daha da böyük işlər görüləcəkdir”. Ən xoş arzularla söylənilən bu fikir əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məxsusdur. Rəhbərin uzaqgörən daxili və xarici siyasətinin nəticəsi olaraq bu gün Qax rayonu dövlətmizin qayğı və diqqəti ilə özünün çoxistiqamətli inkişafını yeni mərhələyə istiqamətləndirərək bizi sevindirməkdədir.**

Respublikamızın çox yerlərində sürətli inkişafın, müasirləşmənin şahidiyik. Ancaq bir təbiət incisi olan Qax gerçəkliyi tamam başqa sevdadır. Qarış-qarış gəzib bu sevdanı yaşasan da belədir, İlisuda, Sarıbaş zirvəsində dayanıb bu gözəllikləri şəhərli-kəndli bütövlükdə seyr etsən də belədir... Necə ki, Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyevlə - vətənin hər qarış torpağını, onun gözəlliklərini dünyaya tanıtmağa çalışan, onun inkişafına sevinən vətənpərvər və ziyalı şəxslə bu yerlərə çox baş çəkmişik, bütün bunlar barədə fəxrlə danışmışıq. Böyük qələbə ilinin sevincini yaşamaqda olan qaxlılar rayonun inkişafı, daxili və xarici turizmin yeni strukturlarının yaradılması uğrunda fədakarlıqla çalışırlar. Rayon rəhbərliyi inkişaf üçün hər bir yeniliyə həssaslıqla yanaşır, cənab Prezidentin göstəriş və tapşırıqlarına ciddi əməl etməklə fəaliyyəti digər strukturlar və sakinlərlə birlikdə düzgün istiqamətləndirir.

Respublikamızda olduğu kimi, 2020-ci ildə Qax rayonun da müvafiq sahələrdə bir sıra işlər görülmüş və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının tərkibində informasiya və rabitə sahəsində məhsul buraxılışı 1 milyon 272 min manat, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7.0 faiz, kənd təsərrüfatı sahəsində məhsul buraxılışı 60 milyon 194 min manat, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3.7 faiz, sənaye məhsulu istehsalı 19 milyon 856 min manat, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9.0 faiz çox olmuşdur. Nəqliyyat sahəsində məhsul buraxılışı 1 milyon 410 min manat, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 44.4 faiz, ticarət sahəsində məhsul buraxılışı 41 milyon 824 min manat əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4.2 faiz, tikinti sahəsində məhsul buraxılışı 15 milyon 799 min manat, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 44.5 faiz az olmuşdur. Qeyd olunan bu sahələr üzrə azalma həmin sahələrin fəaliyyətinə pandemiya ilə əlaqədar tətbiq edilmiş məhdudiyyətlərlə əlaqədardır.





***Hesabat dövründə rayonda 173 yeni iş yeri açılmışdır. Rayon üzrə orta aylıq əmək haqqı 398.1 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 65.2 manat çox olmuşdur.***

Rayon üzrə büdcəyə ötən il 4 milyon 139 min manat proqnoza qarşı 4 milyon 324 min manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 104.5 faizini təşkil etmiş və müəyyən olunmuş proqnozdan 185.8 min manat çox olmuşdur.

Ötən il rayonda sahibkarlığın inkişafı və əhalinin işgüzar fəliyyətinin artırılması və yeni iş yerlərinin yaradılması məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayonda 13 sahibkara 167 min manat güzəştli kredit verilmiş və həmin kreditlər hesabına 9 yeni iş yeri yaradılmışdır.

Rayonda bitkiçilik və heyvandarlıq məhsulları istehsalının dinamik inkişafının təmin olunması üçün nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Belə ki, 2020-ci ilin məhsulu üçün əkilmiş 13026 hektar payızlıq taxıl, o cümlədən 10270 hektar buğda, 2756 hektar arpa sahəsindən 38.4 min ton payızlıq dənlilər istehsal olunmuşdur. Payızlıq dənlilərdə hər hektardan orta məhsuldarlıq 29.5 sentner təşkil etmişdir. 2021-ci ilin məhsulu üçün 10036 hektar sahədə buğda, 4055 hektar sahədə isə arpa olmaqla cəmi 14091 hektar sahədə səpin işləri aparılmışdır. Hesabat ilində 1787 hektar qarğıdalı sahəsindən 15.9 min ton məhsul tədarük edilmiş, orta məhsuldarlıq 84.3 sentner təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 10.1 sentner çox olmuşdur. Ötən il rayon üzrə ümumilikdə bitkiçilik sahəsi üzrə 18820 hektar sahə üçün 4 milyon 270 min manat subsidiya ödənilmişdir.

***Rayon üçün ənənəvi istehsal sahələri olan tütünçülüyün və baramaçılğın daha da inkişaf etdirilməsinə xüsüsi diqqət verilərək ötən il 496.4 hektar sahədə tütün əkini aparılmış 755.6 ton quru tütün tədarük olunmuşdur. Rayonda 12.8 ton barama istehsal olunmuşdur. Kümdarlara barama istehsalına görə 58.3 min manat subsudiyanın verilməsi təmin olunmuşdur. Rayonda baramaçılığın yem bazasının artırılması məqsədilə ötən il 28235 ədəd yerli tut tinginin əkini təmin olunmuşdur.***

Regionların təbii-iqlim şəraiti və istehsal ənənələri nəzərə alınmaqla ixrac yönümlü məhsul istehsalının artırılması məqsədilə hesabat ilində rayonun ayrı-ayrı ərazilərində 22.5 hektar sahədə yeni fındıq bağları salınmışdır. Rayonda yaradılmış Aqropark ərazisində ötən il ekoturizmin inkişaf etdirilməsi məqsədilə 50.5 hektar ərazidə müxtəlif növ meyvə tingləri əkliməklə ekobağ salınmış, suvarmanın yüksək səviyyədə təşkili məqsədilə damcılı suvarma sistemi quraşdırılmışdır. Hesabat ilində müəssisədə 1070 hektar buğda sahəsindən 5104 ton, 90 hektar arpa sahəsindən 417.6 ton olmaqla cəmi 5521.6 ton payızlıq dənlilər istehsal olunmuşdur. Buğda məhsulu üzrə məhsuldarlıq 47.7 sentner, arpa məhsulu üzrə məhsuldarlıq 46.4 ton təşkil etmişdir. Buğdanın məhsuldarlığı rayon səviyyəsindən 17.9 sentner, arpanın məhsuldarlığı isə 18.0 sentner çox olmuşdur. Qeyd etmək lazımdır ki, müəssisənin suvarılan torpaqlarında hesabat ilində 180 hektar dən qarğıdalı sahəsinin hər hektarından 141 sentner olmaqla cəmi 2538 ton məhsul istehsal olunmuşdur. Hesabat ilində müəssisədə 90 hektar sahədə təkrar qarğıdalı əkini aparılmış və 912 ton məhsul istehsal olunmuşdur. Həmçinin müəssisədə 2021-ci ilin məhsulu üçün 1049 hektar sahədə buğda, 100 hektar sahədə arpa əkini aparılmışdır.

”Aqrolizinq” ASC-nin rayon bölməsi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli qiymətlə 941 ton müxtəlif növ mineral gübrələrin və 1884 litr həcmdə pestisidlərin satışı təmin olunmuşdur.

Hesabat ilində filiala məxsus texnikalar vasitəsi ilə rayonun ayrı-ayrı ərazilərində 2800 hektar sahədə payızlıq dənlilərin, 400 hektar sahədə isə dən qarğıdalı biçini aparılmışdır.

Torpaqların su təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədilə ötən il rayonda 513.5 min m3 həcmdə lildən təmizləmə işləri, 25 ədəd hidropost və 51 ədəd hidroqurğuda təmir işləri aparılmışdır. Sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə ötən il daşqın və selə qarşı 1002.9 min m3 məcratəmizləmə işləri aparılmış, 1979 m3 qabion və 5598 m3 daş-beton bəndlərdə sahilbərkitmə işləri, 313.7 m3 beton bənddə, 401 m3 beton kanalda, 1997.3 m3 dəmir-beton kanalda təmir işləri aparılmışdır.

**”Qax rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2020-ci il tarixli Sərəncamına uyğun olaraq hesabat ilində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayonun 17 yaşayış məntəqəsində - Almalı, Baydarlı, Dəymədağlı, Əlibəyli, Güllük, İbaxlı, Kiçik Alatəmir, Qaradolaq, Qındırğa, Qıpçaq, Qorağan, Ləlpaşa, Marsan, Turaclı, Uzuntala, Zərnə kəndlərində və Qax şəhərində artezian və subartezian quyuları qazılmışdır.**

**(ardı növbəti sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Xeyir əməl ziyarətdən daha üstündür

**Elə insanlar var ki, xeyirxahlıq, əl tutmaq, savab əməllər onların xislətindədir. Bu keyfiyyətlər sonradan qazanılmır, genlə -qanla varlıqlarına hopur. Onlar savab əməllərini də gizli saxlayır, bundan reklam kimi istifadə etmirlər. Belə insanlardan biri də Həsən Zərdabi küçəsindəki ofisində rastlaşdığım, adını eşidib üzünü görmədiyim, nurlu siması ilə ilk andan insanda müsbət ovqat yaradan, ağır seyid ocağının nümayəndəsi Aslanov Mir Nazim Mir Səttar oğludur.**

”Seyid” süzğnğn ərəb dilindən tərcğməsi ”ağa” deməkdir. Ğmumiyyətlə, ərəb dilində bu süz ehtiram əlaməti olaraq işlədilir. İslam dinində əsl seyidlər Həzrəti Məhəmməd Peyğəmbərin (s) nəslindən olanlar sayılırlar. Məhəmməd Peyğəmbərin (s) nəsli yalnız qızı Fatimənin (ə) İmam Əli (ə) ilə izdivacından doğulmuş Həsən (ə), Hğseyn (ə) vasitəsilə davam edib. Bu gğn də dğnyanın mğxtəlif ülkələrində yğzlərlə seyid yaşayır. İslam dinində seyidlərə ehtiram güstərmək vacib sayılır. Məclislərdə seyidləri yuxarı başda əylə°dirmək, onun qulluğunda durmaq ənənəyə zevrilib.Tarixən Azərbaycanın mğxtəlif rayonlarında da seyidlər yaşayıb və elə indi də yaşayır. Onlardan bəziləri yaşadıqları bülgələrdə kifayət qədər tanınımış, yğksək hürmət-izzət sahib olublar. Araşdırmalara görə, Azərbaycanda Məhəmməd Peyğəmbərin (s.) on iki imamın soy-kükğnə, qan damarlarına bağlı olan bir nezə nəsil şəcərəsi var. Bu nəsillər imam nəslinə bağlıdır və genetik kodlar üst-üstə düşür. Seyidlərin adlarının qarşısında ”Mir” süzğ işlədilir. Bu yazıda mğqəddəs seyid ocaqlarından birinin layiqli üvladı - Mir Nazım Mir Səttar oğlundan söz açmaq istəyirik. Mir Nazim 1969 -cu il İyulun 8-də Şabran şəhərində dünyaya göz açıb. Ailədə 7 uşaq olublar. Onların hamısı dürüst, zəhmətsevər olduğu kimi halallığı, paklığı, xeyirxahlığı, insanlara yaxşılıq etməyi də özlərinə həyat meyarı seçiblər. Bütün mahalda bu nəslin nümayəndələrinə sonsuz inam və hörmətlə yanaşılır.




Seyid ocağının nəsil şəcərəsi əsrlərin dərinliyinə uzanır. Sovet dövründə repressiya dalğası bu ocaqdan də yan ötməyib. Nəslin neçə-neçə seyid-üləma kimi tanınan şəxsiyyətləri həbs olunub, sürgünə göndərilib. Onun dayısı Həsənov Seyid Əşrəf Ağasəlim oğlu da Siyəzən rayonunda tanınmış ziyalı, izzət və xeyir əməllər sahibi kimi tanınıb. Ağır seyid nəslinin davamçısı Mir Səttar Mir Sahib oğlunun ocağında dünyaya göz açmış, kiçik yaşlarından atasının, dayısının insanlara əl tutduğunu, çarəsizlərə yardım etdiyini görüb-götürmüş, hazırda iki övlad və iki nəvə sahibi olan, xeyirxah insan kimi böyük hörmət qazanmış Mir Nazım savab əməlləri ilə də tanınıb. Başına gələn haqsızlıqlar onu yolundan döndərə bilməyib. 1990-cı il Bakıdakı 20 yanvar və 9 aprel Tibilisi qırğınlarının iştirakçısı olmuş Mir Nazimin həmin dövrdən əsəbləri pozulub.

Dəhşətli görüntülər, rus əsgərlərinin insanları tankların altında əzməsi səhnələrə bu günədək gözlərinin qabağından getmir. Müstəqillikdən sonra bəzi məmurların haqsız əməlləri ilə də mübarizə aparan Mir Nazim itirdiyi sağlamlığı, əsəbləri hesabına onlarla insanın səsinə hay verib. belə ki, həmişə zəhmətə böyük dəyər verən, ruzisini halal əməyi ilə əldə edən Mir Nazim savadı, biliyi ilə də insanlara yardımçı olmağa çalışır, onların dərdlərini dinləyib problemlərinin həlli ilə bağlı tövsiyə və məsləhətlər verir. Bu işlərdə ona kömək edən - davamçısı hesab etdiyi bacısı oğlu Rüfət Əliyevlə birgə insanların xidmətində olmağı özlərinə borc hesab edirlər. Onun ofisinə hər gün haqsızlıqla üzləşən onlarla insan baş çəkir, ondan kömək gözləyir və ya problemlərinin həllində etdiyi koməyə görə təşəkkürlərini bildirməyə gəlirlər.

**Gənc yaşlarında el ağsaqqalı adını qazanmış Mir Nazim müqəddəs ziyarətgahları ziyarət edib, Məşhəd, Kərbəla ziyarətlərində olub. Qərara alıb ki, yaxınlarda fəaliyyətini rəsmi şəkildə, QHT formasında reallaşdırsın və artıq bunun üçün tələb olunan sənədləri toplamağa başlayıb. Ona xeyirxah missiyasında uğurlar diləyir, bu xeyirxah əməllər yolunda hər zaman müvəffəqiyyət qazanmasını arzu edirik.**

**Hüsniyyə Əlizadə**

# "HƏQİQƏT İŞIĞINDA" DÜŞÜNCƏLƏR...

**Məhərrəm Şəmkirli! Ədəbiyyatın ədəbi dünyasına daxil olan bu işıqlı adamın imzasına, ədəbi zövqünə, qələminin gücünə yaxşı bələdəm. Hər sözü, hər cümləni ürəyində bişirməmiş üzə çıxarmayan qələm dostumun bir-birindən maraqlı, oxunaqlı hekayələri, mənsur şeirləri, məqalələri onun istedadının və qələminin gücündən xəbər verir.**

Məhərrəm Şəmkirli ömrünün 70-ci ilini arxada qoysa da, sanballı və dəyərli kitabların müəllifi olsa da, vaxtilə xalq şairi Nəbi Xəzri onun mənsur şeirlərinə böyük qiymət versə də, bir çox tanınmış qələm adamlarından, xalq yazıçılarından sözünün qüdrətilə daha üstün olsa da, təəssüf ki, bu günkü oxucular onu yaxşı tanımırlar. Səbəbi çox sadədir. Çünki o, mənən çox varlı olsa da, maddi cəhətdən kasıb yazıçıdı, vəzifə kreslosunda əyləşməyən yazıçıdı. Neçə-neçə biznesmen şairlərdən, var-dövlət içində xumarlanan yazıçılardan, həyatda bəxti gətirən bəxtəvərlərdən istedadlı olsa da "kölgədə qalıb". Çünki pulu yoxdur, yüksək vəzifəsi yoxdur. Pulu olsaydı, əsərləri barədə monoqrafiyalar yazılardı, tez-tez televiziya ekranlarında görünərdi, ondan müsahibə almaq üçün jurnalistlər növbəyə durardılar, qəzetlərdə onun kitablarından yazardılar, tənqidçilər onun yaradıcılığını cümlə-cümlə təhlil edərdilər… Bəli, kasıbçılığın üzü qara olsun. Pulunşeytana namaz qıldırdığı bu zəmanədə tanınmaq da, şöhrət qazanmaq da, kitab çap etdirmək də…yazıçının, şairin cibindən asılıdır. Cibin boşdusa, ürəyin nə qədər dolu olsa da, Lev Tolstoy, Dostoyevski, Gek Londan və s. olsan da kitablarını oxumayacaqlar. Səmimi deyirəm.

### *Əgər Şekspir, yaxud Dostoyevski bu gün yaşasaydı,*

***kitablarının satışından gələn qonorarla yaşaya bilməzdilər, aclarından ölməmək üçün ya təkər yamayan olardılar, ya da ki, bazarda kartof, soğan satardılar… Və bir də Məhərrəm Şəmkirli varlı olmaq üçün yox, yazıb-yaratmaq üçün doğulub. Yazmaq onun missiyasıdır. Yazıçılıq tale qismətidir. O, bu qismət qaça bilsəydi, yəqin ki, ən varlı, ən dövlətli Şəmkir kişilərindən biri olardı, onun da səsi-sorağı Sankt-Peterburqdan, Moskvadan, Tümendən…gələrdi. Axı on minlərlə şəmkirlilər həmin şəhərlərdə ticarətlə məşğul olurlar və yaxşı da qazanırlar. Məhərrəm Şəmkirlinin qazancı isə yazdığı kitablarıdı. Və nə yaxşı ki, belədir. Dünyada var-dövlət qalmayacaq, yazılanlar qalacaq. Llah və sevgi kimi yazılanlar da əbədidir. Mətləbdən çox uzaqlaşmayaq. Axı söhbət halal qələm adamından, böyük istedad sahibindən, yazıçı, publisist Məhərrəm Şəmkirlidən gedir.***

Yazıçının "Qeyrətim - əbədi sərvətim", "İçimi göynədən ağrılar", "Lətifələr və atmacalr", "Əlimin içində titrədi əlin" və s. kitablarını oxumuşam, fikir və düşüncələrimi söhbət zamanı özünə bildirmişəm. Amma "Həqiqət işığında" (Bakı, 2019) məqalələr toplusunu oxuyandan onra qələmdən yapışmalı oldum. Ruhuma sığal çəkən, könlümü oxşayan, iç dünyamı silkələyən, qaranlığı aydınlaşdıran, gözlərimiz qarşısında insan mənzərələrini canlandıran məqalələri, oçerkləri, xatirələri…oxuduqca Məhərrəm Şəmkirlinin yazıçı və jurnalist böyüklüyünün bir daha şahidi oldum. "Həqiqət işığında" bir daha onun özünü gördüm, səsini eşitdim.

***Məhərrəm Şəmkirlinin özünü görə-görə, səsini eşidə-eşidə həqiqət işığında düşüncələrimi kağıza köçürməli oldum. Yazdım ki, qələm dostuma, eləcə də məhərrəmsevərlərə, sözə can verib yaşadanlara…öz fikirlərimi bildirəm.***

Öncə qeyd etməliyəm ki, Məhərrəm Şəmkirli "Həqiqət işığında" məqalələr toplusu ilə növbəti dəfə oxucuların görüşünə gəlib, özü də ürəklə gəlib, inamla gəlib. Oxucular onun ədəbi dünyasında bir-birindən maraqlı adamlarla, ziyalılarla, şair və yazıçılarla, dağdan ağır kişilərlə… tanış olmaq şansı qazanacaqlar. Ağıllı oxucu bu şansı əlldən qaçırmaz. "Həqiqət işığında" yer alan rəylər, məqalələr, xatirələr, müsahibələr…bir xəzinədir və bu xəzinədə incilər toplanıb. Bu inciləri ipə-sapa düzüb oxuculara ərmağan eləyən Məhərrəm Şəmkirli sadə və gözəl yazır. Yazdıqlarını səmimi, rəngsiz-boyasız, qeyri-adi cəlbedicilikə qələmə alır. Səmimiyyət ədəbiyyatın döyünən ürəyidir. Səmimiyyət olmayan yerdə sənət də yoxdur.




Bəli, Məhərrəm Şəmkirli səmimi insandır və yazdıqları da səmimidir, dəqiq düşüncəli bir yazarın iç dünyasından gələn səslərdir.

### *Və bu səslərdən də hiss olunur ki,*

onun öz mövzuları var və o, bu mövzuları özünəməxsus bir şəkildə qələmə alıb oxuculara çatdırır. Bu baxımdan "İlahidən verilmiş səs", "Unudulmaz sənətkar", "Ədəbiyyatımızın Rəsul Rza zirvəsi", "Ağıl, güc və dəmir yumruq" və s. məqalələri, "Şirin xatirələr", "Yaddaşımda yaşayan insan", "Bir yazıçı tanıyırdım, Cəmil Əlibəyov haqqında" və s. xatirələri, eləcə də tanınmış şair və yazıçıların kitablarına yazmış olduğu rəylər…böyük maraq doğurur, həyəcanla oxunur. Bu yazıların hər birində Məhərrəm Şəmkirlinin ədəbiyyata və mənəviyyata xidmət etdiyi açıq-aydın hiss olunur.

"Həqiqət işığında" məqalələr toplusunda müəllifin ziyalı vətəndaş mövqeyi bir daha öz əksini tapır. Kitabın "Rəylər" bölümündə Asif Ata, Salatın Əhmədli, Əziz Musa, Müzəffər Şükür, Rəhman Salmanlı, Rəşid Abbasov kimi görkəmli qələm adamlarının yaradıcılığı ilə oxucuları yaxından tanış edən Məhərrəm Şəmkirlinin "Həqiqət işığında" yer almış yazıları oxuyub başa vurandan sonra bir müddət kitabın əhatə dairəsindən çıxa bilmədim. Elə bil ki, oxuduğum məqalələr, rəylər, xatirələr…məni sehirləmişdi. Bu sehrin cazibə qüvvəsindən qurtulmaq o qədər də asan məsələ deyildi. Axı "Həqiqət işığında" yer alan məqalələrin, xatirələrin təsirindən can qurtarmaq mümkün deyildi.

### *Yazılan hər məqalədə*

müəllifin hər cümləyə belə fanatik məsuliyyət hissini duymamaq olmur. İnanıram ki, bunu oxucular da hiss edəcəklər. Oxucular həm də Məhərrəm Şəmkirli qələminin gücünü hiss edəcəklər. Məhz ona görə də kitabda yer almış yazılardan ayrı-ayrılıqda söhbət açmaq istəmədim. Bunu oxucuların öz öhdəsinə buraxıram.

Və ən nəhayət, demək istəyirəm ki, bir-birindən maraqlı və dəyərli kitabları ilə qazandığı böyük uğurlar bir daha deməyə əsas verir ki, Məhərrəm Şəmkirli xalqımıza, dövlətimizə, ədəbiyyatımıza xidmət edir. Və Azərbaycanımız həm də onun kimi işıqlı ziyalıları, şəxsiyyətləri, istedadlı qələm adamları ilə güclüdür.

**Zəruri qeyd: Ömrünü yazıb-yaratmağa həsr edən, sözlə nəfəs alan istedadlı qələm dostumun - Məhərrəm Şəmkirlinin bir-neçə ay öncə arxada qalan 70 yaşını bu məqalə ilə mübarəkləmək istəyirəm.**

**Vaqif İsaqoğlu**



# 80 ilin sənət fədaisi: Bəy oğlu...

**Hörmətli oxucularım, yəqin ki, "sənət fədaisi" sözünə tez- tez rast gəlmisiniz. Gözünüzə görünən bütün sənətlərin fədaisi olduğunu da bilirsiniz. Söhbət sənət fədaimiz aktyorluq məharətini 80 il səhnədə sübut edən, köhnə Azərbaycan kişisini, əsil-nəcabətli bəyi xatırladan Ağasadıq Ağəli oğlu Gəraybəylidən gedir. Təkcə "Bəxtiyar " filminə diqqət etsək, bu filmin dillər əzbəri sitatlarının çoxu sevilən altyor A. Gəraybəyliyə məxsusdur**

"İşimiz əngəldir. Başa düşürsüz ki, işimiz əngəldir"(kollektivə müraciətlə), "Bunu bilin ki, Zəhra xala, mən bu klubun direktoruyam, siz isə burada kassirşasız"(xalası Zəhraya məzəmmət edir ),"Klubda xala çoxdur. Bacıoğlu isə bir dənədir" (xalası Gülzara təpinir), "Dedim qohum-əqrabadır, bəd ayaqda dadıma çatarlar"(klub üzvlərinə müraciət edir), "Bəlkə bir balaca antrakt elan edək?" (komissiya üzvlərinə), "Rza kimi qohumun başına daş düşəydi"("pionist" Rzadan gileylənir), "Heç artistə də qabaqcadan pul verərlər?" (xalası Gülzara əsəbiləşir), "Vay dədəm var, atova lənət "Kirpi" (satirik jurnal üçün deyir),"Siz mənə sərt xəbərdarlıq və şiddətli töhmət verə bilərsiniz" (komissiya üzvləri ilə mübahisə ), "Azərbaycanda məni az-çox tanıyırlar" (Rza İsmayılova müraciətlə) kimi sitatlar bəzən lap atalar sözü yerinə də işlənir, məqamında, təbəssüm doğurmağla yanaşı, deyilən fikri gücləndirir.

Bəlkə elə bu uğura görə təkrarsız Rəşid Behbudov bu sözləri demişdi:" "Bəxtiyar"filmində çəkiliş meydançasında Ağasadığı klub müdiri Ağabala rolunda görəndə sevindim. Çünki o, insan kimi də, aktyor kimi də əsl xarakter nümayiş etdirirdi. Bilirdim ki, o, bir neçə filmdə çəkilib. Ancaq Ağabalanı elə həvəslə oynayırdı ki, sanki kamera qarşısında deyildi, ekranda görünənlər real təsvirlər təki baxılırdı".

### Sahibsiz uşaq Gəray...

Teatrı varlığından artıq sevən, obrazlar qalereyası yaradan, tamaşaçı alqışı qazanan, dövlət mükafatlarına, fəxri adlara layiq görülən Ağasadıq Gəraybəyli124 il əvvəl-1897-ci ilin bir yaz günündə, martın 15-də Şamaxıda bəy ailəsində dünyaya göz açıb: O həyat bioqrafiyası haqqında belə yazırdı:" Atamı erkən itirdim. Yetimə "gəl-gəl" deyən çox olar, əsl qayğı göstərən isə az. Ən çətin anlarımda Yaradanımz imdadıma yetişdi. İndi də xatırlaya bilmirəm ki, necə oldu Bakıya gəldim. Ancaq qonşumuz Məşədi Məhəmmədin dedikləri hələ də qulaqlarımda səslənir:

*"Get, a bala, canın zəlzələdən qurtaracaq. Əlin Allahın ətəyində olsun. Zəhmət çəkərsən, bəhrəsini də görərsən". Sahibsiz uşaq idim. Tanımadığım bir darvazanı döydüm. Gülərüz, mehriban baxışlı, nurani, ahıl bir kişi qapını üzümə açdı. Elə bil məni çoxdan tanıyırdı. "Gəl görüm, nə istəyirsən?" Kimsəsiz olduğumu ona danışdım. Qəfil dilləndi: "Ay qız, Heyran, haradasan? Tanrı bizə züriyyət göndərib". Həmin gündən Əlisəttar kişidən atalıq, Heyran xanımdan analıq nəvazişi gördüm. Məktəbə gedəndə də bəxtim gətirdi. Sonralar yazıçı-dramaturq kimi tanınan Cəfər Cabbarlı ilə bir sinifdə oxuduq. Dövrün tanınan ziyalısı Hüseyn Ərəblinskidən çox mətləbləri öyrəndim. Mirmahmud Kazımovskinin təşkil etdiyi teatr dərnəyinə gedərdim. Ən çətin günlərim 1905-1907-ci illərdə oldu. Ermənilər Bakıda, bakılılara divan tutur-dular. Yaxşı ki, niyyətlərinə çatmadılar. Haqq qalib gəldi. Dərslərimi pis oxumurdum. Ancaq yatanda da yuxuda teatr, səhnə görərdim. Hüseyn Ərəblinskinin sayəsində "Nicat", sonra "Səfa" həvəskar teatr dərnəklərinə getdim. İlk dəfə yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyevi 1913-cü il martın 15-də gördüm. Sərt xasiyyətli adam idi. Əhvalı yaxşı olanda isə üz-gözündən nur yağardı. İlk oxucularından biri də mən olmuşam".*

### Sənətə könül verən sənət fədaisi

Bəli, aktyor milli teatrımızın və kinomuzun səhifələrinə qızıl hərflərlə yazılan obrazlar qalereyası yaradıb. O, 200 müxtəlif rolda səhnəyə çıxıb. Nəriman Nərimanovun "Nadir şah", Üzeyir Hacıbəyovun "Arşın mal alan", Cəfər Cabbarlının "Sevil", "Od gəlini", "1905-ci ildə", Səməd Vurğunun "Vaqif", "Həyat", "Xanlar", "Fərhad və Şirin", Cəlil Məmmədquluzadənin "Ölülər", Qoqolun "Müfəttiş", Mirzə İbrahimovun"Həyat" əsərlərində oynadığı rolların hər biri milli teatrımızın zənginləşməsinə xidmət edib. Kinoşünas Şəhla Əmirli yazır: "O, mimika cizgiləri ilə personaja olan mövqeyini incə ştrixlərlə göstərirdi. Məsələn, görkəmli kinorejissor H.Seyidzadənin 1956-cı ildə quruluş verdiyi "O olmasın, bu olsun" kinokomediyasında aktyorun oynadığı Rüstəm bəy obrazı nə qədər iddialı, özündənrazı olsa da, filmin finalında Gülnazın yolasalma səhnəsində onun kədərli, düşüncəli, eyni zamanda ironik, təəssüf dolu ifadəylə xudahafizləşdiyini görürük. Aktyorun mövqeyindən obrazın doğru yaşam tərzinin olmadığı, qeyri-normal prinsiplərə kökləndiyi həyat mövqeyinin cılızlığı, eləcə də cəmiyyətdə gülüş hədəfinə çevrildiyi təəssüf dolu baxışıyla bildirilir. Sənət bilicisinin mənfi personajlarına olan tənqidi yanaşması nəticəsində də məntiqli gülüş komizm səviyyəsinə yüksəlir, keyfiyyətli komediya həyatın tipik inikasına çevrilir, şəxsi və ictimai qüsurları tənqid edir. Peşəkar aktyor oyunu sayəsində də əsərin uğurlu ekran təfsilatı təsirsiz qalmır. "Qızmar günəş altında" (1957, rejissor Lətif Səfərov) filmindəki Niyaz Sərdarov obrazı qəliz və qəribə xarakterlidir. O, çay əkini zamanı quraqlıqla mübarizə aparmaqda, tarlaların suvarılması üçün lazım olan su anbarının tikilməsində, kanalın çəkilməsində, tibb məntəqəsinin bərpa olunmasında əmək adamlarına kömək etmək istəmir, hadisələrə birmənalı yanaşır. Bununla yanaşı, cəsarətsiz kolxoz sədri kimi görünən Sərdarov Eldarın və həkim Aydın Zeynalovun mərd cəhətlərini də alqışlayır. O, cəsurluğun insana yaraşan xüsusiyyət olduğunu bilir, bəyənir, özü isə ətrafdakılara qarşı biganə yanaşır. Hətta həyat yoldaşının (aktrisa Barat Şəkinskaya) aşırı həddə olan tənə və iradlarına normal, sakit münasibət bildirir. Bununla da obrazın qüsurlu cəhətlərini ifşa edir ".

### Sənətkarlar sənət fədaisi haqqında

***Xalq şairi Səməd Vurğun yazıb:*** "Hər dəfə Ağasadığı səhnədə görəndə həyatın özü, yaratdığı obrazın canlı təsvirləri gözlərim önündən keçir. Onun timsalında həyatla səhnə arasında sıx əlaqə görürəm".

**Görkəmli teatr xadimi Mehdi Məmmədov isə deyərdi:**"Aktyorluq onun alın yazısıydı. 1940-cı ildə xalq artisti fəxri adına layiq görülmüşdü. Onu bir dəfə də olsun özündən razı görmədim. Məşqlərə həmkarlarından tez gələrdi. Hər jestinə, mimikasına fikir verərdi. Kollektivdə nüfuz qazanmışdı. Can deyib, can eşidərdi".

**Xalq artisti, Əliabbas Qədirov danışardı:** "İnstitut bitirmək, ali təhsil almaq azdır. Həyat təcrübəsinin yerini heç bir diplom, kitab verməz. Ağasadıq Gəraybəyli bizim mənəvi müəllimimiz idi. Onun qədrini bildikcə özümüz də şöhrət zirvəsinə ucalırdıq".Ağasadıq Gəraybəyli çox mükafatlara, fəxri adlara, orden-medallara layiq görülmüşdü. Ən böyük sevinci "O olmasın, bu olsun" filmində Rüstəm bəy rolunu oynamaq idi. Aktyor Rüstəm bəy obrazının taleyini - həm keçmişini, həm də mövcud vəziyyətini olduqca inandırıcı yaradıb. Tanınmış teatr-kino xadimi Adil İsgəndərov dəfələrlə qeyd etmişdi: "Əgər Ağasadıq Gəraybəyli təkcə Rüstəm bəy rolunu oynasaydı, yenə də ekran sənətimizin fəxri kimi xatırlanardı".

Sənətkar və şəxsiyyətin şəhərin mərkəzində, Xaqani küçəsi 19-da yaşayırdı. Məşhur müğənni Bülbüllə, xalq yazıçısı Mirzə İbrahimovla, xalq şairi Süleyman Rüstəmlə qonşu idi. Bir gün Süleyman müəllim ona deyib: "Ay qardaş, ay qonşu, ay oynadığı rollara can, nəfəs verən aktyor, niyə iş yerinə piyada gedib-gəlirsən? Sabahdan mənim xidməti maşınım səni teatra aparıb gətirəcək". Onun cavabı isə qısa oldu: "Yox, Süleyman, hələ ki, ayaqlarım sözümə baxır. Bir də qardaş, mənim doğma xalqımdan nə gizlinim? Teatrın binasından evimə gələnəcən yüzlərlə adam mənə salam verir, əhvalımı soruşur. Bundan da böyük şərəf, şöhrət olar?!"

Ağasadıq Gəraybəyli təvazökar insan, nümunəvi ailə başçısı idi. 1933-cü ildən ömrünün son gününə qədər Azərbaycan Dövlət Akademik Dram Teatrında çalışmış, alqışlarla qarşılanan səhnə xadimlərindən biri olub.

Aktyorun səhnədə sonuncu rolu "Xurşudbanu Natəvan" əsərində qoca knyaz obrazı olub. Aktyorun qızı Zemfira xanım xatirələrində deyirdi:"Çox adam bilmirdi ki, o, sonuncu obrazı olan "Xurşudbanu Natəvan" pyesində səhnəyə çıxanda gözləri görmürdü.Rolunu elə oynamışdı ki, tamaşaçılar bunu hiss etməmişdi. Bu, əsl möcüzə idi. Onda atamın 92 yaşı vardı. Çətini teatra qədəm qoyana qədər idi. Sonradan öz intuisiyasının gücü ilə hər yeri tanıyır, harada pillələr olduğunu da bilirdi... Bu, atamın sənətə bağlılığı idi. O, əsl sənət fədaisi idi".

**Teatr və kinomuzda unudulmazizqoyanAğasadıq GəraybəyliMilli Dram Teatrının tarixində yeganə aktyordur ki, 80 il mütəmadi teatrda çalışıb. O, 5 dekabr 1988-ci ildə isə gözünü həyata yumdu.**

**Əntiqə Rəşid**

## TƏBRİK



**Bu gün şəkildə gördüyünüz yaraşıqlı oğlanın doğum günüdür. Məhəmmədin 8 yaşı olur. Ona bu yeni yaşında sevincli günlər yaşamasını arzu edirik. Üzün həmişə gülsün, valideynlərinə və Vətəninə layiq övlad olasan!**

**Yaxşı ki, varsan! Bu təbrikə bütün doğmaları, xüsusilə də Mehriban nənəsi qoşulur.**

**Ad günün mübarək, Məhəmməd!**

# "Bahar mövsümü üçün qara rəng aktualdır"

**İqlim və hava şəraiti yaza doğru dəyişəndə dəb də dəyişir. İstər rəng baxımından, istərsə də başqa meyarlara görə. Baharda təbii parçalardan hazırlanan paltarlar dominantlıq təşkil edir və beləcə, insanlar seçimlərində bu tərz geyimlərə üstünlük verirlər.**

Hər mövsüm geyimlərlə bağlı qadınları düşündürən bir neçə sual ortaya çıxır: "Görəsən, bu sezonun geyimləri hansılardır? Hansı rəng çalarlarına üstünlük verək? Geyimlərimiz dar olsun, yoxsa boş?" Bu suallara cavab tapmaq istəyirlər, ələlxüsus da gənc xanımlar. Onlar tez-tez saytlara, dəb səhifələrinə nəzər salır, yenilikləri gözdən keçirirlər. Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfovanın sözlərinə görə, bahar mövsümünün dəbi əvvəlki illərdən xüsusilə fərqlənir. Belə ki, bu sezon daha çox geyim müxtəlifliyi, assortiment təqdim olunur:



"Dəb aləmində modelyerlər, dizaynerlər hər yeni mövsüm üçün markalar, kolleksiyalar təqdim edirlər. İndi biz 2021-ci ilin bahar-yay mövsümü haqqında danışırıq. Təbii ki, satış mağazalarında, dizaynerlərin kolleksiyasında yeni trendlər müşahidə olunur və onlar təqdim edilir. Bunların arasında yeni formalar, rəng çalarlarının dəbə uyğun kombinasiyaları və ümumiyyətlə, geyim müxtəlifliyi, assortiment təqdim olunur.

Sonradan izləyicilər, dəbsevərlər bu assortimenti müşahidə edir və özlərinə uyğun ansambllar yaradırlar. Bu prosesə təbii ki, modelyerlər müdaxilə etmirlər. Ona görə ki, geyimlər istehsal olunur və satış mağazalarına təqdim edilir. Sonradan dediyim kimi, istifadəçilər özləri seçib, uyğunlaşdırıb, öz tələbatlarına görə patlarlar alırlar".

Rənglərə gəldikdə 2021-ci ilin əsas dəbi bənövşəyi və zümrüd rəng çalarlarından ibarətdir. Lakin bu rənglərlə yanaşı bir sıra rənglər də üstünlük təşkil edir:

"Bahar-yay mövsümündə hər zaman dizaynerlər tərəfindən rəngli çalarlar təqdim olunur. Partçaların təbii olmağına üstünlük verilir və printlər burada əsas rol oynayır. Bunların arasında çiçəkli printlər, həndəsi fiqurları əks etdirən printlər, noxudu printlər daha çox dəbdədir. 2021-ci il üçün dizaynerlər maraqlı tendensiyalar təqdim ediblər. Onların arasında Şərq motivlərinin əsasında folklor üslubunda olan printlər, bənövşəyi, zümrüd tonlarında olan rəng çalarları, hər zaman olduğu kimi klassik üslubda krem-karamel rənglər dəbdədir. Bir şey də var ki, bu il üçün, həm qış mövsümü, həm də bahar mövsümü üçün qara rəng çox aktualdır. Kolleksiyalarda bu rəngin çoxluğu müşahidə olunur".

Fəxriyyə xanım deyir ki, bahar mövsümündə idman üslubunda olan və boş geyimlər daha çox dəbdə olacaq. Onun sözlərinə görə, ümumilikdə 2021-ci ildə pandemiya ilə əlaqədar insanlar evdə və qismən gəzintidə olduqları üçün idman üslubunda olan geyimlər populyarlıq qazanıb:

**"Bahar mövsümündə daha çox idman üslubunda və boş geyimlər üstünlük təşkil edir. Bilirik ki, idman üslubunda olan geyimlər hər il aktualdır. Amma 2021-ci ildə idman üslubunda olan geyimlərdən istifadə daha çoxdur. Daha çox gəzintilərə getdiyimizə görə idman üslubunda olan geyimlər gənclər arasında hit istiqamətə çevrilib".**

**Rövşən Tahir**


**Ağamirzəyeva Nübar Akif qızının adına 2005-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Mingəçevir Turizm Kolleci tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.**

***

**Kürdəmir rayon Sığırlı kənd sakini mərhum Cavadov Kamal Cavad oğlunun və ailə üzvlərinin adına Kürdəmir Aqrar İslahat Komissiyası tərəfindən verilmiş 17 iyul 1998-ci il tarixli 06 nömrəli qərarına əsasən kod 90600038, JN:0494 olan torpağın mülkiyyət hüququna dair dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**


Aqil Abbas ailə üzvləri ilə birlikdə **Vilayət Quliyevə** qızı

**HUMAY xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəbi Muxtarov ailə üzvləri ilə birlikdə **Vilayət Quliyevə** qızı

**HUMAY xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mərhum professor Məmməd Məmmədovun oğlu Süleyman ailə üzvləri ilə birlikdə **Vilayət Quliyevə** qızı

**HUMAY xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əbülfət Mədətoğlu **Vilayət Quliyevə** qızı

**HUMAY xanımın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cumar İsayev və Oğuz rayon Xaçmaz kənd ziyalıları **Ənvər Seyidova** əzizi

**AYBƏNİZ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# «Kamança qəliz alətdir»

***"Tənqid olmalıdır. İş olan yerdə tənqid də mütləq olmalıdır. Çox insanlar təhqirlə tənqidi səhv salırlar. Tənqid yaxşı şeydir, mən xoşlayıram, amma haqlı yerə. Haqsız tənqidi sevmirəm. Tənqid olmasa, irəliləyiş də olmaz. Bu gün belə müəllimlərim məni tənqid edirlər ki, bunu belə etmək olmaz. Və yaxud muğamda burada dayan və ya bu efirə get, o efirə getmə. Tənqidə pis baxmıram". "Ədalət" qəzetinin qonağı kamança ifaçısı Elnur Salahovdur.***

**-Elnur müəllim, haqqınızda müəyyən qədər məlumatlıyam. Uğurlu gəncsiniz, müəllimsiniz və ən əsası faydalı vətəndaşsınız. Amma sizi tanımayanlar da var. Odur ki, özünüzü təqdim edin...**

-İlk olaraq sizə təşəkkür edirəm ki, məni diqqətdən kənar saxlamamısınız. Təqdimata gəldikdə deyim ki, Bakının Məştəğa qəsəbəsində müəllim ailəsində anadan olmuşam. 1999-cu ildə 10 saylı musiqi məktəbində kamança ixtisasına daxil olmuşam, müəllimim məktəbin direktoru Qafar Nuriyev olub. 2006-cı ildə oranı bitirib sənədlərimi Milli Konservatoriya nəzdində fəaliyyət göstərən Musiqi Kollecinə vermişəm. Həmin Kolleci bitirdikdən sonra 10 saylı musiqi məktəbində pedaqoji fəaliyyətə başlamışam. Böyük sənətkarlardan üzr istəyirəm, bu günə kimi orada pedaqoq kimi çalışıram.

Ali təhsil isə bir az gec olub. 2010-2011-ci illərdə test balım az olduğu üçün ali məktəbə daxil ola bilmirdim. Çox şükürlər olsun ki, 2020-ci ildə Milli Konservatoriyaya imtahan verdim və daxil oldum. Ən böyük arzularımdan biri idi ali savad almaq.

**-Müəllimləriniz barəsində bir az geniş danışaq...**

-Bayaq vurğuladığım kimi, 10 saylı musiqi məktəbində müəllimim Qafar Nuriyev olub. Kamançanı ilk dəfə mənə öyrədən insandır. Musiqi Kollecində isə müəllimim notdan da, muğamdan da Əməkdar müəllim Adıgözəl Əliyev olub. Çox gözəl pedaqoqdur. Konservatoriyada muğamdan müəllimim Respublikanın Xalq artisti, professor Fəxrəddin Dadaşov, notdan isə Ağacəbrayıl Abbasəliyevdir. Hər zaman arzum olub ki, sənətkarlardan dərs alım. Arzularıma da çatmışam. Digər ustadları da özümə müəllim sayıram.

### "Bilməzdim, nə zamansa kamança ifaçısı olacam"

**-Bu gün gənclər kamançaya maraq göstərirlərmi?**

-Bu suala belə cavab verərdim, artıq 10 ilə yaxındır ki, pedaqoq kimi fəaliyyət göstərirəm. 10 il ərzində çox tələbələrim olub. Bu illər ərzində onlardan musiqi aləmində yer alan olmayıb. Çox təəssüf edirəm ki, olmayıb. Bu da nə ilə əlaqədardır, deyim sizə. O vaxt məni də musiqi məktəbinə aparanda demişdilər ki, bura get, ba-

şın qarışsın, bu məqsədlə qoymuşdular. Mənə deməmişdilər ki, mütləq kamançada olmalısan. O vaxt musiqi məktəbinə gedəndə bilməzdim ki, nə zamansa kamança ifaçısı olacam, efirlərdə yer alacam, dərs deyəcəm. Qismət. 2-ci, 3-cü sinifdən başladım ifa etməyə. Valideynlərim də mənə dəstək oldular. Oxudum, bitirdikdən sonra valideynlərim dedi ki, musiqini davam etdirmək istəyirsən? Ondan əvvəl isə söylədilər ki, evdən biri artıq musiqi ifaçısıdır, bəlkə, zərgərliyə gedəsən? Razılaşmadım, Musiqi Kollecinə getdim.

İndiki tələbələrdən danışsaq, mənim tələbələrimdən musiqi camiyəsində olan yoxdur. Düzdür, onların arasında istedadlıları var, amma davam etdirməyiblər. Birinin imkanı olmayıb, birinin valideyni qoymayıb və s. səbəblər olub.

**-Tənqidə qarşı münasibətiniz?**

-Tənqid olmalıdır. İş olan yerdə tənqid də mütləq olmalıdır. Çox insanlar təhqirlə tənqidi səhv salırlar. Tənqid yaxşı şeydir, mən xoşlayıram, amma haqlı yerə. Haqsız tənqidi sevmirəm. Tənqid olmasa, irəliləyiş də olmaz. Bu gün belə müəllimlərim məni tənqid edirlər ki, bunu belə etmək olmaz. Və yaxud muğamda burada dayan və ya bu efirə get, o efirə getmə. Tənqidə pis baxmıram.

**-Kamançanın öz incəlikləri var. Bundan söhbət açaq...**

-Kamança ifaçılığı elə incəsənətin özüdür. İncəsənətdə kamançada ifa etmək qəlizdir. Musiqiçilərdən kimdən soruşsanız, deyəcək ki, kamança qəliz alətdir. Nə barədə qəlizdir? Kamança digər alətlərlə müqayisədə hələ təkmilləşmiş alət deyil. Kamançanı soyuq havada saxlamaq olmaz. Daha sonra kamança çöldə başqa kökdə olar, evə gətirərsən, tamam başqa kökdə. Tarda da bu problemlər var.

Tarda, sazda pərdələr var, amma kamançada belə pərdələr yoxdur. Gərək fitri istedadın olsun ki, hiss edib musiqi çalasan. Sənin fitri istedadın olmasa, bu sənətdə çox əziyyət çəkəsən. Bu sənət insandan hissiyyat tələb edir. Bu aləti hiss etməsən, çala bilməyəcəksən.

### "Əksər ifaçılar trio şəklində fəaliyyət göstərir"

**-Solo ifalar, yoxsa üçlük?**

-Gözəl sualdır. Həmişə arzum olub ki, hansısa bir yerlərdə solo ifa edim. Bu illər ərzində mən və bir neçə kamança ifaçıları trioda fəaliyyət göstərir ki, bunu da maddiyyata bağlayıram. Yəni efirlərə, toylara solo getmirlər. 1-2 faiz ifaçılar gedər, amma əksər ifaçılar trio şəklində fəaliyyət göstərir. Məsələn, mən xanəndəni toyda müşayiət edirəm və bundan qonorar əldə edirəm. Solo ifada bu mümkün deyil axı. Oturub gözləyim ki, məni tək kim toya və ya efirə dəvət edəcək? Solo ifaçılığa gərək ki, hazırlaşasan, repertuar seçib, ifaları özünəməxsus şəkildə çalasan. Dinləyici səni ilk növbədə qəbul etməlidir. Ki, bundan sonra sən verilişlərə çıxa bilərsən.

**-Məşhur kamança ifaçılardan kimləri dinləyirsiniz?**

-Gözümüzü açmışıq, Habil müəllimi görmüşük. Hər zaman onun ifalarını dinləmişik. Televiziyada daim eşidirdik ki, ifa edir, Habil Əliyev. Bir çox musiqiləri ifa edib, öz bəstələri də var. İlk Habil müəllimi dinləmişəm, musiqi məktəbinə daxil olduqdan sonra maraqlanmışam ki, hansı



ifaçılar var. Rəhmətlik Ədalət Vəzirovu dinləyirəm, daha sonra sənətkarlarımız Ağacəbrayıl müəllimə, Fəxrəddin müəllimə, Elşən Mansurova, Münis müəllimə, Elnur Əhmədova, Xəyyam Məmmədova qulaq asıram.

**-Musiqiçi üçün təhsil önəmlidir?**

-Əlbəttə ki, önəmlidir. Savadın olmalıdır, savadsız musiqiçi nəyə lazımdır? Amma buradan bir sual ortaya çıxır, rəhmətlik Habil Əliyevin savadı yox idi. Amma onun elə bir istedadı var idi ki, handa bir kəsə elə bir istedad qismət olar, ya yox?! Habil müəllimin təhsili yox idi, möhtəşəm idi, görün olsaydı, necə olardı?!

Məncə, indiki vaxtda təhsil önəmlidir. Özümdən götürək elə. Mən kollec bitirmişəm. Oranın diplomu ilə musiqi məktəbində çalışıram. Neçə il geciksəm də, Konservatoriyaya daxil oldum. Nəyə görə təhsilimi davam etdirdim? Həm muğamın sirlərini, notları öyrənmək mütləqdir, həm də oranın diplomu lazımdır. Konservatoriyanın diplomu ilə və savadınla sən Kollecdə dərs deyə bilərsən. Bir pillə yuxarı, yəni magistr dərəcəsi alsan isə elə Konservatoriyada, yaxud Mədəniyyət və İncəsənət Universitetində dərs deyə bilərsən. Bu baxımdan təhsil önəmlidir.

**-İncəsənətdə sizi nə qane etmir?**

-İncəsənətdə olan bir insan kimi deyərdim ki, sənətin qane edən tərəfləri də var, qane etməyən tərəfləri də. Efirlərdə bayağı musiqiləri təbliğ edirlər. Bu məni qane etmir. Tar ifaçıları və kamança ifaçılarını demirəm, başqa ifaçıların bir çoxuna dediklərim aiddir. Bir də efirlərə bayağı müğənniləri çağırırlar. Bu kimi hallara görə təəssüf edirəm.

**-Sizə təşəkkür edirəm ki, dəvətimi qəbul edib müsahibə verdiniz.**

-Siz sağ olun.

**Rövşən Tahir**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 74**
Çapa imzalanmışdır: 15.03.2021